

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 128 (7383) / Cümə axşamı, 18 iyul 2019-cu il




# Azərbaycanın neft-qaz resursları bundan sonra da uzun illər ərzində xalqa, dövlətə xidmət göstərəcək

**PREZİDENT İLHAM ƏLİYEV:**

"Əsrin kontraktı"nın imzalanmasından sonra Azərbaycana böyük həcmdə sərmayə qoyuluşu başlamışdır və eyni zamanda, ondan sonra digər kontraktlar da imzalandı. "Əsrin kontraktı"nın çox böyük əhəmiyyəti var. Bu gün də bu əhəmiyyət kifayət qədər böyükdür. İki il bundan əvvəl kontraktın müddəti uzadıldı, 2050-ci ilə qədər bu kontrakt qüvvədə olacaq. Yəni, bu, o deməkdir ki, Azərbaycanın neft-qaz resursları, eləcə də "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılacaq neft-qaz bundan sonra da uzun illər ərzində Azərbaycan xalqına, dövlətinə xidmət göstərəcək".

## BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb



⇨ Bax: səh. 3

⇨ Bax: səh. 4

## Heydər Əliyev Fondu ürək qüsurlu uşaqların əməliyyatına dəstək oldu

## "Yay məktəbi"nin iştirakçıları Lerikdə




⇨ Bax: səh. 8

## Generallar Bakıda görüşür: qlobal təhlükəsizlik və əməkdaşlıq imkanları



⇨ Bax: səh. 6

⇨ Bax: səh. 4



## SOCAR-ın yanvar-iyun ayları üzrə qazma, hasilat və ixrac göstəriciləri

*Xoşbəxt Yusifzadə:*

2019-cu ilin sonuna qədər ölkə üzrə ümumi qaz hasilatında 20 faiz artım gözləyirik



## Respublika Veteranlar Təşkilatında görüş

⇨ Bax: səh. 9

⇨ Bax: səh. 5

Azərbaycan Respublikası Sərhəd Qoşunları yaranmasının 100 illiyi qarşısında

## Tarixi missiyanı yaşadanlar




10 Azərbaycan İlahiyyat İnstitutu Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini mükafatlandırıb

14 Türkiyənin aldığı S-400-lər Ermənistanı lərzəyə salıb

16 "Dirilişin" Ərtoğrulu tamamilə fərqli obrazda

# Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir



**Müasir dövrdə qloballaşma prosesləri hər şeydən əvvəl beynəlxalq münasibətlərin möhkəmlənməsi, ölkələr arasında əlaqələrin genişlənməsi, ayrı-ayrı xalqların mədəniyyətində ümumi elementlərin artması ilə səciyyələnir. Bu fikir hər zaman önə çəkilir ki, dinc yanaşı yaşamağın təmin edilməsinə yönələn fəaliyyətin mühüm tərkib hissəsi və şərtlərindən biri ümumbəşəri dəyərlər sahəsində mədəniyyətlərarası dialoqun zəruriliyidir.**

Bu dəyərlərin öyrənilməsi və ortaq nöqtələrinin açıqlanması ümumi mədəniyyətlərarası dəyərlərin aşkar edilməsində mühüm rol oynaya bilər. Bu nöqteyi-nəzərdən yanaşaraq dövlətimizin başçısı İlham Əliyevin Avropa ölkələrinə, eyni zamanda, bu və ya digər ölkələrin və beynəlxalq təşkilatların rəsmilərinin Azərbaycana səfərləri çərçivəsində keçirilən görüşlərdə, imzalanan sənədlərdə də bu kimi məqamlar öz əksini tapır.

Bu günlərdə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun ölkəmizə səfəri zamanı aparılan müzakirələr, onun mətbuata bəyanatlarında əksini tapan fikirlər də Azərbaycanın beynəlxalq nüfuzuna, demokratik ölkə kimi qazandığı imicə bir daha işıq saldı. Nəzərə alaq ki, ötən il dövlətimizin başçısı İlham Əliyevin Belçika Krallığına rəsmi səfəri zamanı imzalanan "Tərəfdaşlıq prioritetləri" sənədində də Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfələr, Avropa İttifaqının Azərbaycanla bu sahədə əməkdaşlıqda maraqlı olduğu xüsusi qeyd edilmişdir.

"Tərəfdaşlıq prioritetləri" sənədinin birinci bəndində vurğulanır ki, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Həmçinin sənəddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur. Dövlətimizin başçısı İlham Əliyevin 2017-ci ildə Belçikaya səfəri zamanı Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi barədə bəyanat vermişdir. Aİ-nin tərəfdaş ölkələrdə bütün münaqişələrin həllinə vahid yanaşması ötən ilin noyabrında Şərq Tərəfdaşlığının Brüssel sammitində bir daha təsdiqlənmişdi. Avropa İttifaqının Şərq Tərəfdaşlığının bütün ölkələrinin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün dəstəklənməsi üzrə Avropa İttifaqının öhdəliklərinin dəqiq vurğulandığı "Xarici siyasət və təhlükəsizlik haqqında qətnamə" qəbul edilmişdi. Bununla da qurum Ukrayna, Gürcüstan, Moldova və Azərbaycan ərazilərindəki münaqişələrin həllinə vahid yanaşmanı aydın nümayiş etdirdi. Ötən il imzalanan "Tərəfdaşlıq prioritetləri" sənədini yüksək qiymətləndirən tərəflər sənədin Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacağına əminliklərini ifadə etdilər.

Əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycanın xarici siyasətində Avropa istiqamətinin xüsusi yeri vardır. Avropa İttifaqına üzv olan böyük və nüfuzlu dövlətlərlə qarşılıqlı əməkdaşlıq daim inkişaf etdirilir. Qarşılıqlı səfərlər bu münasibətlərin daha da möhkəmlənməsinə öz töhfəsini verir. Avropa İttifaqı ilə münasibətlərin sağlam təməl üzərində qurulmasının nəticəsidir ki, ölkəmiz hazırda bu təşkilatın bir çox proqramlarında fəal iştirak edir. Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşı kimi qəbul olunur. Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun ölkəmizə səfəri çərçivəsində keçirilən görüşlərdə də bu fikir xüsusi qeyd olunmuşdur ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşı və investorlarından biridir.

Ölkəmizin bu uğurlarında təbii ki, siyasi islahatların rolu xüsusi qeyd edilməlidir. Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun bəyanatlarında bu fikir öz əksini tapır ki, insan haqları və azadlıqlara, o cümlədən ifadə azadlığına xüsusi diqqət yetirilir. Avropa İttifaqı hesab edir ki, bu, açıq cəmiyyətlərdə uzunmüddətli sabitlik və inkişafın ən yaxşı təminatıdır. Bu məsələlərdə tərəfdaş kimi işləməyi davam etdirməyi səmimiyyətlə arzulayırıq. D.Tusk budəfəki səfərində də Azərbaycanın demokratik inkişafına xüsusi diqqət yönəldərək bu sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün imkanların mövcudluğunu bildirmişdir: "Bu gün Prezident Əliyevlə apardığım müzakirələrdə mən Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirmək üçün Avropa İttifaqının hazır olduğunu bir daha təsdiq etdim və eyni zamanda, bizim qanunun aliliyi, insan



hüquqları və əsas azadlıqlara nə qədər böyük önəm verdiyimizi vurğuladım. Avropa İttifaqı hesab edir ki, həqiqətən açıq olan cəmiyyət uzunmüddətli sabitliyin və bütün vətəndaşlar üçün yaxşı həyatın ən gözəl təminatıdır."

Ölkə Prezidenti İlham Əliyev Azərbaycanın hər sahədə, o cümlədən demokratik islahatlar sahəsində əməkdaşlığa xüsusi önəm verdiyini belə ifadə edir: "Bizim aramızdakı əməkdaşlıq çox səmərəlidir, çox səmimidir və böyük potensiala malikdir. Bizim aramızda olduqca fəal siyasi dialoq gedir, mütəmadi olaraq görüşürük və ölkəmizdə siyasi inkişafa, siyasi islahatlara aid vacib məsələləri müzakirə edirik. Biz ölkəmizin bütün vətəndaşlarına hər hansı imkanı təmin etmək üçün Azərbaycanda demokratik islahatların davam etdirilməsinə sadiqik." Cənab İlham Əliyev demokratik inkişaf baxımından ən öndə gedən ölkələrin təcrübəsinə diqqəti yönəldərək bildirir ki, onların əksəriyyətində iqtisadi inkişaf çox yüksək səviyyədədir, dünyada inkişaf etmiş ölkələr kimi tanınırlar. Bizim də məqsədimiz ondan ibarətdir ki, Azərbaycan inkişaf etmiş ölkələr sırasına daxil olsun. Bunun üçün bütün imkanlar mövcuddur: şəffaf siyasət, siyasi islahatlar, iqtisadi güc, təbii ehtiyatlar, əlverişli coğrafi məkan. İqtisadi tərəqqinin demokratikləşmə prosesinin sürətlənməsində nə kimi rol oynadığını Azərbaycanın bugünkü uğurlarının fonunda aydın görmək olur. 1994-cü ildən ölkədə sabitliyin, əlverişli biznes mühitinin formalaşması, qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişlənməsi, ən əsası "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin iqtisadi inkişafı üçün möhkəm təməl formalaşdı. "Əsrin müqaviləsi"nin imzalanmasının 23 illiyində "Yeni əsrin müqaviləsi"nin imzalanması, Cənub Qaz Dəhlizinin" açılışı, onun əsas seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi və sair kimi həm iştirakçı, həm də digər dövlətlərin iqtisadi imkanlarının artmasına yol açan uğurlarımız Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsindən irəli gəlir. Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun səfərində enerji sektorunda əldə olunan uğurların əməkdaşlığın genişlənməsində oynadığı rol xüsusi önə çəkildi: "Azərbaycan çox nadirdir. Ölkəniz özündə ənənə və müasirliyi birləşdirir. Bu günün mürəkkəb coğrafi landşaftındakı strateji mövqeyinizə görə Siz həm Şərqə, həm də Qərbə doğru baxırsınız. Əvvəllər də qeyd etdiyim kimi, cənab Prezident, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. Avropa İttifaqı və Azərbaycan hər il bir-birinə yaxınlaşır. Münasibətlərimiz intensivləşib və mənim bugünkü səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Aİ-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcək. Əlbəttə ki, biz bizi sözün həqiqi mənasında birləşdirən Cənub Qaz Dəhlizini unutmamalıyıq. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, bütün xalqlarımız üçün birbaşa faydalı olmalıdır, Azərbaycanın islahatlar və iqtisadi şaxələnmə prosesini müşayiət etməlidir."

Bu fonda dünya birliyi də bunu reallığı yüksək dəyərləndirir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin təməlində vətəndaş amili dayanır. Xalq-iqtidar birliyi sabitliyin, davamlı inkişafın təminatçısıdır. Vətəndaşların bütün azadlıqları qanunvericilik çərçivəsində qorunur. Ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə dediyi və təcrübədə özünü təsdiqləyən bu fikri dövlətimizin həyata keçirdiyi siyasətin prioritetidir: "Demokratiya daim inkişafda olan prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir. Bu təkmilləşmə təkamül yolu ilə olmalıdır."

Azərbaycan bir sıra beynəlxalq təşkilatlara daxil olmasını məqsədyönlü siyasət və düşünülmüş addım kimi dəyərləndirən Prezident İlham Əliyevin qeyd etdiyi kimi, məqsəd Avropanın ən inkişaf etmiş ölkələrində mövcud olan müsbət təcrübənin Azərbaycanda tətbiqini sürətləndirmək, başəri dəyərlərdən faydalanmaqdır. "Biz müxtəlif beynəlxalq təşkilatlara üzv olmuşuq. Özümüz könüllü daxil olmuşuq, heç kim bizi məcbur etməmişdir. Nə üçün? Ona görə ki, Azərbaycanda olan meyarlar dünyanın ən qabaqcıl ölkələrinin meyarlarına uyğun olsun."

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# BMT Baş Assambleyasında ölkəmizdə həyata keçirilən sosial islahatlar barədə danışılıb





**Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində səfərdə olan Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov BMT Baş Assambleyasında əhali və inkişaf üzrə Qahirə konfransının 25 illiyi münasibətilə keçirilən yüksək səviyyəli iclasda çıxış edib.**

AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini 1994-cü ildə təşkil edilmiş Qahirə konfransının əhəmiyyətini vurğulayaraq konfransın həyata keçirilən təşəbbüslərin mərkəzində insanların rifahının ön planda olduğunu sübut etdiyini bildirib. Bununla yanaşı, o, ölkəmizdə həyata keçirilən sosial islahatlar çərçivəsində həyat səviyyəsinin yüksəldiyini, insan hüquq və bərabərliyinin təmin edildiyini, o cümlədən sosial xidmətlərə əlçatanlığın artırılması üçün kompleks tədbirlərin görüldüyünü diqqətə çatdırıb. Son 15 ildə Azərbaycanda 2 milyondan çox iş yerinin açıldığını, əməkhaqlarının və pensiyaların müvafiq olaraq bir neçə dəfə artırıldığını, əhalinin 1,6 milyon nəfər artaraq 10 milyona çatdığını vurğulayıb. Ötən dövr ərzində sosial infrastrukturun əhəmiyyətli dərəcədə yaxşılaşdırıldığını və yüzlərlə məktəb, tibb ocaqları və digər sosial obyektlərin inşa edildiyini diqqətə çatdırıb.

Baş Nazirin müavini, eyni zamanda, ölkəmizin gənclər və gender siyasətinə xüsusi önəm verdiyini və gənclərin, qadınların məşğulluğunun, o cümlədən onların ictimai-siyasi həyatda rolunun artırılması istiqamətində məqsədyönlü siyasətin həyata keçirildiyini bildirib.

Bununla yanaşı, Əli Əhmədov Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox azərbaycanlının yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələrin indiyədək yerinə yetirilmədiyini diqqətə çatdırıb.

Eyni zamanda, Baş Nazirin müavini Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində qısa müddət ərzində əhəmiyyətli işlərin görüldüyünü, DİM-lərin ölkə prioritetlərinə inteqrasiya edildiyini, habelə regionda və MDB məkanında ilk ölkə olaraq ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Könüllü Milli Hesabatın təqdim olunduğunu qeyd edib.

# BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb

**Baş Nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT-nin İnkişaf Proqramının (BMTİP) Baş direktoru Akim Stayner və onun müavini, BMTİP-in Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Spolyariç Eqqer ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın BMT-nin İnkişaf Proqramı ilə ikitərəfli əməkdaşlığının genişləndirilməsi və birgə həyata keçirilən layihələrdə səmərəliliyin artırılması məqsədilə müzakirələr aparılıb. Azərbaycanın BMT-nin İnkişaf Proqramı çərçivəsində əməkdaşlığının uğurla davam etdiyini vurğulayan Baş Nazirin müavini 1992-ci ildə BMT-yə üzv olduqdan sonra bu əməkdaşlıq çərçivəsində bir sıra mühüm sənədlərin imzalandığını qeyd edib. O, ölkəmizin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri qlobal təşəbbüsünə qoşulması ilə bu təşkilatla əməkdaşlıqda yeni səhifə açıldığını vurğulayıb.

Azərbaycanda son dövrlərdə bütün sahələrdə inkişafın dayanıqlılığının təmin edilməsi istiqamətində aparılan islahatlar barədə məlumat verən Əli Əhmədov aparılan islahatlarda BMTİP ilə birgə icra olunan layihələrin mühüm önəm kəsb etdiyini bildirib. Eyni zamanda, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında da ön sıralarda olmağı planlaşdırdığı, bu məqsədlə ölkədə bütün strategiyalar və dövlət proqramlarının qlobal məqsədlərə uyğunlaşdırıldığı diqqətə çatdırılıb.

Baş Nazirin müavini Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox azərbaycanlının yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü və bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını bildirib.

BMT İnkişaf Proqramının Baş direktoru Azərbaycan Respublikasında aparılan sahəvi islahatları və Azərbaycanın DİM-lərin həyata keçirilməsində göstərdiyi səyləri yüksək qiymətləndirib. O, Azərbaycanda DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı vəzifələrin kompleks əlaqələndirilməsi və icrası üçün Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasını, qısa müddət ərzində DİM-lərə inteqrasiya istiqamətində görülən işləri, habelə regionda və MDB məkanında ilk ölkə Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunmasını qeyd edib, bütün bunları ölkəmizin DİM-lərə nail olunmasında sərgilədiyi həssas yanaşmanın bariz nümunəsi kimi dəyərləndirib.

BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin hökumətlə çox səmərəli əməkdaşlıq qurduğunu və bu əməkdaşlığın digər region ölkələri üçün nümunə ola biləcəyini qeyd edən Miryana Spolyariç Eqqer dayanıqlı inkişafa nail olunması istiqamətində həyata keçirilən layihələrdə BMT-nin hər zaman Azərbaycana dəstək verməyə hazır olduğunu diqqətə çatdırıb.

# Norveç və İsrail ilə əlaqələrin inkişaf perspektivləri müzakirə olunub





Azərbaycanın Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Nyu-Yorkda Norveçin Beynəlxalq inkişaf naziri Daq İnqe Ulstein və İsrailin Ətraf mühitin mühafizəsi naziri, Təhlükəsizlik Şurasının üzvü Zeev Elkin ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, norveçli nazirlə görüşdə ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivləri, o cümlədən alternativ və bərpa olunan enerji mənbələrinin və enerji səmərəliliyinin artırılması istiqamətində əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparılıb. Bununla yanaşı, dayanıqlı inkişaf üzrə təqdim edilən Azərbaycanın ikinci Könüllü Milli Hesabatının yüksək səviyyədə hazırlandığı, inklüziv inkişaf və özəl sektorun prosesə cəlb edilməsi məsələlərinin hesabatda geniş işıqlandırılmasının təqdirəlayiq olduğu qeyd edilib.

İsrailli nazirlə görüşdə Əli Əhmədov İsrail-Azərbaycan münasibətlərinin inkişaf etdiyini deyib, bu uğurlu əlaqələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirib. Zeev Elkin Azərbaycan ilə İsrail arasında daim dostluq münasibətlərinin olduğunu, bu münasibətlərin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində yeni əməkdaşlıqlarla daha da möhkəmlənəcəyini diqqətə çatdırıb. Nazir ölkələrimiz arasında təhsil, səhiyyə və digər istiqamətlərdə əməkdaşlığın davam etdiyini, növbəti illərdə su və su resurslarının səmərəli istifadəsi sahəsində Azərbaycanla əməkdaşlıq etməyə hazır olduqlarını söyləyib, bununla əlaqədar ölkəmizə səfər etmək niyyətini bildirib.

Görüşdə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində Azərbaycanın uğurlu addımlar atdığı və bu sahədə ölkəmizin təcrübəsinin öyrənilməsinin vacibliyi qeyd edilib.

## TƏMAS XƏTTİNDƏ NİSBİ SAKİTLİK MÜŞAHİDƏ OLUNUB



Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

## BEŞ AY ƏRZİNDƏ AZƏRBAYCANDA 56 MİN 254 KÖRPƏ DOĞULUB



Bu ilin 5 ayı ərzində Azərbaycanda 56 min 254 körpə doğulub. Əhalinin hər 1000 nəfərinə bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyişməyərək eyni səviyyədə (13,7) qalıb. Körpələrdən 1238-i əkiz, 36-sı isə üçəmdir.

Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib.

Cari ilin yanvar-may aylarında ölkədə 24 min 690 ölüm halı qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,2-dən 6,0-a düşüb.

# SOCAR-ın yanvar-iyun ayları üzrə qazma, hasilat və ixrac göstəriciləri

## *Xoşbəxt Yusifzadə:* 2019-cu ilin sonuna qədər ölkə üzrə ümumi qaz hasilatında 20 faiz artım gözləyirik



2019-cu ilin II rübündə SOCAR öz imkanları hesabına müstəqil olaraq 1,9 milyon tondan çox neft, 1,7 milyard kubmetrə yaxın qaz hasil edərək, hasilat səviyyəsini əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit saxlamağa nail olmuşdur.

Şirkətin istismar etdiyi neft və qaz yataqlarında hasilat səviyyəsinin sabit qalması üçün həyata keçirilən kompleks tədbirlər planının icrası davam etdirilmiş, istismardan çıxarılmış bir sıra köhnə quyuların fəaliyyəti bərpa olunmuş, yeni quyular qazılmış, ümumilikdə qazma işlərinin həcmi ötən ilin müvafiq dövrünə nisbətən artırılmışdır. Cari ilin ikinci rübündə şirkət üzrə 41 min metrdən artıq qazma işi aparılmışdır.

Hesabat dövründə SOCAR tərəfindən, AÇQ üzrə mənfəət neftində daxil olmaqla 4,9 milyon ton xam neft, 172 milyon kubmetrdən çox təbii qaz, 604 min tondan artıq neft və neft-kimya məhsulları ixrac edilmişdir. Xam neftin ixracında azalma müşahidə edilsə də, neft və neft kimya məhsullarının ixracında 48 faiz artım qeydə alınmışdır. Bu isə xam neftin və qazın ixracında azalmaya səbəb olan amillərdən birinin də daha çox məhsulun emala yönəlməsi olduğunu göstərir.

II rübdə, Azərbaycanın digər hasilatçı şirkətləri daxil olmaqla, ölkə üzrə ümumilikdə 9 milyon tondan çox neft, 8 milyard kubmetrdən çox qaz hasil edilmişdir. Dövr ərzində ölkədən 2,4 milyard kubmetrdən çox təbii qaz ixrac edilmişdir. Təbii qazın ixracında Cənub Qaz Dəhlizinin işə düşməsi ilə əlaqələr olan artım ötən ilin müvafiq dövrünə nisbətən təqribən 37 faiz təşkil etmişdir.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə demişdir: "Dünyanın ən qədim neft sənayesinin beşiyi başında durmuş Azərbaycanda zəngin və peşəkar neftçi ənənələri formalaşmışdır. Lakin digər tərəfdən dünyanın ən qədim və uzun müddət ərzində istismar olunan yataqlarının məhz bizim ölkəmizdə olması qarşımızda çağırışlar yaradır. Bu baxımdan qarşıdakı dövrdə əsas hədəfimiz bütün vasitələrlə köhnələn yataqların ömrünü uzatmaqdır.

Digər tərəfdən yeni yataqlarımızın uğurla işlənilməsi ölkəmizdə qaz hasilatının artırılması və gələcəkdə neft gəlirlərinin müəyyən dərəcədə qaz gəlirləri ilə balanslaşdırılması üçün şərait yaradır. 2019-cu ilin sonuna qədər ölkə üzrə ümumi qaz hasilatında 20 faiz artım gözləyirik. Növbəti illərdə də ölkədə qaz hasilatı yüksələn xətt üzrə inkişaf edəcəkdir. Bu müsbət trend qarşımızda həm də qaz emalı və kimya sənayesinin inkişafı üçün yeni imkanlar açır."




## IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüş olub



**Azərbaycanda müxtəlif millətlərə, dinlərə, mədəniyyətlərə mənsub insanlar əsrlərdir sülh və həmrəylik şəraitində yaşayırlar. Beynəlxalq Multikulturalizm Yay və Qış Məktəbləri bu birgəyaşayışın bütün dünyaya təqdim olunması baxımından çox əhəmiyyətlidir. Artıq ənənəyə çevrilən bu məktəblər əcnəbi tələbələrin Azərbaycanın multikultural ənənələri ilə yaxından tanış olmaları üçün çox yaxşı fürsətdir.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüşdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, akademik Kamal Abdulla deyib.

Yay məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural və tolerant mühit barədə məlumat verən Kamal Abdulla 2016-cı ilin Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə "Multikulturalizm İli" elan edildiyini bildirib. O vurğulayıb ki, multikulturalizm Azərbaycanın dövlət siyasəti, xalqımızın həyat tərzidir. Azərbaycan dövləti özünün multikultural siyasətini, tolerant mövqeyini daim qoruyur və inkişaf etdirir.

Himayəçilik Şurasının sədri vurğulayıb ki, Azərbaycanda multikultural həyat tərzinin qədim tarixi və böyük ənənələri var. Ən qədim zamanlardan ölkəmizdə müxtəlif xalqların nümayəndələri arasında dərin dostluq və qarşılıqlı əməkdaşlıq mühiti formalaşıb. "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı ölkəmizdəki multikultural həyat tərzinə işıq salır.

Kamal Abdulla bildirib ki, bu gün Azərbaycan multikulturalizmi bir çox ölkələrin universitetlərində fənn kimi tədris edilir.

Görüşdə Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçılarının sualları cavablandırılıb.

## Heydər Əliyev Fondu ürək qüsurlu uşaqların əməliyyatına dəstək oldu

Heydər Əliyev Fondunun dəstəyi ilə Cəbrayıl və Füzuli rayonlarından olan ürək qüsurlu uşaqlar üzərində cərrahiyyə əməliyyatı həyata keçirilib.

Trend-in məlumatına görə, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin iyunun 1-3 tarixlərində Cəbrayıl rayonunun Cocuq Mərcanlı qəsəbəsi və Füzuli rayonunda "Uşaq ürəkləri Qarabağda döyünür!" şüarı altında keçirdiyi xeyriyyə aksiyası zamanı 400-dək uşaq diaqnostik tibbi müayinələrdən keçirilmişdi.

Müayinələr nəticəsində 7 usaqda anadangəlmə mürəkkəb ürək qüsurları aşkarlanmış və onların Mərkəzi Gömrük Hospitalına yönləndirilməsinə qərar verilmişdi.

Qeyd olunan uşaqların əməliyyatı və müalicəsi ilə bağlı məsələləri Heydər Əliyev Fondu öz üzərinə götürüb.

## "Euronews" telekanalı UNESKO-nun Bakı sessiyası haqqında süjet yayımlayıb




"Euronews" telekanalı UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilmiş 43-cü sessiyası haqqında süjet yayımlayıb.

Mədəniyyət Nazirliyindən Trend-ə verilən məlumata görə, süjetdə Bakı sessiyasının əhəmiyyəti, burada müzakirə olunan məsələlər və qəbul olunan qərarlar barədə geniş məlumat verilir.

## Aprel şəhidlərinin uşaqları üçün yay düşərgəsi təşkil edilir



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri çərçivəsində yeni bir istiqamət kimi "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin iştirakı ilə şəhidlərin uşaqları üçün yay düşərgəsinin təşkili layihəsi reallaşdırılır.

Trend-in məlumatına görə, nazirlik Aprel şəhidlərinin uşaqlarından (23 nəfər), eləcə də azyaşlı olanların valideynlərindən (7 nəfər) ibarət 30 nəfər üçün İsmayıllı rayonundakı istirahət mərkəzlərindən birində yay düşərgəsi təşkil edib. 17-26 iyul tarixlərini əhatə edəcək yay düşərgəsinin təşkilində məqsəd həmin uşaqların yay tətilini daha maraqlı və yaddaqalan, səmərəli keçirmələrinə şərait yaratmaqdır.

İstirahət müddətində uşaqlar üçün maraqlı və əyləncəli oyunlar, viktorinalar təşkil ediləcək. Onlar üçün həmin bölgənin mədəni-tarixi yerlərinə ekskursiyaların, intellektual yarışların və s. keçirilməsi də nəzərdə tutulur.

## Azərbaycan Respublikası Sərhəd Qoşunları yaranmasının 100 illiyi qarşısında

# Tarixi missiyanı yaşadanlar

***Müsahibimiz Respublika Veteranlar Təşkilatının sədr müavini, Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanının şəxsi heyətlə iş üzrə keçmiş müavini, polkovnik Cəlil Xəlilovdur***

***- Cəlil müəllim, bu il Sərhəd Qoşunlarının yaradılmasının 100 illiyi tamam olur. Bu şanlı yubileyin tarixi, yaddaqalan məqamları haqqında düşüncələrinizi bilmək istərdik...***

- Azərbaycan Respublikasının Sərhəd Qoşunları sözün həqiqi mənasında şanlı tarixi yol keçib. Bu qürur doğuran yolun başlanğıcı Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulub. Cümhuriyyətin yaranmasına qədər çar Rusiyasının tərkibində Azərbaycanın sərhədləri qeyri-müəyyən olub. Yəni Azərbaycanın da sərhədlərinin mühafizəsi Rusiya tərəfindən həyata keçirilib. Çar Rusiyasının süquta uğraması ilə Azərbaycanın sərhədlərinin müəyyən edilməsi və mühafizəsi sahəsində lazımi addımlar atılıb. Azərbaycanın sərhədlərinin müəyyənləşdirilməsi və onun mühafizəsi istiqamətində ilk rəsmi addımlar AXC qurulmasından sonra mümkün olub. Müstəqil



dövlət qurulduqdan sonra sərhədlərin müəyyənləşməsi və mühafizəsi məsələləri həllini tapmağa başlayıb. Mühafizə qüvvələrinin yaradılması və formalasması sahəsində hökumət və parlament kompleks tədbirlər həyata keçirib. Gürcüstan və Ermənistanla sərhədlərin müəyyənləsdirilməsi üçün bir neçə layihə və təkliflər də hazırlanıb. Bunlardan biri 1918-ci il iyun ayının 22-də “Poylu stansiyasında sərhəd postunun yaradılması haqqında” qəbul edilən qərardır.  İlk mühafizə qüvvələrinin başlıca vəzifəsi qaçaqmalçılığın və qanunsuz ticarətin qarşısının alınması idi. Bu vəzifə Poylu və Mazımçay sərhəd postlarının mühafizə qüvvəsinin üzərinə düşürdü.

***- Sərhəd Qoşunlarının yerinə yetirdiyi missiya barədə daha hansı mühüm faktları diqqətə çatdırmaq istərdiniz?***

-Sərhəd mühafizəsi çox çətin tarixi şəraitdə yaranıb. Ölkə dörd bir yandan təhlükə və taleyüklü problemlərlə üzbəüz qalmışdı; şimaldan, cənubdan, şərqdən və qərbdən Azərbaycana təcavüzlər, müxtəlif dəstələrin basqınları gözlənilirdi, digər tərəfdən də artıq qeyd etdiyimiz qaçaqmalçılıq və qanunsuz ticarət halları geniş miqyas almışdı. Zaqatalada qubernator olmuş general-mayor Ş.Haşımbəyov Daxili İşlər Nazirliyinə ünvanladığı məktubda sərhəd mühafizəsi üçün 150 nəfər lazım olduğunu bildirdi. Bunlardan 50-si jandarmeriya, 100 nəfəri isə mühafizəçi kimi nəzərdə tutulmuşdu. Mühafizə qüvvəsinin sərhəddə 12 postda yerləşdirilməsi nəzərdə tutulurdu.

Şimaldan və dəniz sərhədlərindən gözlənilən bolşevik Rusiyası və Denikinin könüllü ordusu, qərbdən Ermənistan və digər təhlükələri göz önünə gətirəndə ölkənin sərhədlərindəki vəziyyət daha da aydın olur. Üstəlik 1919-cu ilin ikinci yarısına qədər Lənkəran qəzası və Muğanın bir hissəsində dövlətə müqavimət göstərən silahlı qüvvələr mövcud idi. Həmin qüvvələrin qəti surətdə məğlub edilməsi 1919-cu ilin uğurlu avqust hərbi əməliyyatından sonra mümkün oldu.

Cənub sərhəd zolağında təhlükə mənbələrindən biri yerli silahlı qruplar və qaçaqlar idi. Bu dəstələr sərhəd boyu yaşayış məntəqələrinə hücumlar edir, həmin məntəqələrin sakinlərini öldürür və qarətçiliklə məşğul olurdular.

Belə mürəkkəb və ağır vəziyyətdə Azərbaycan sərhədçiləri milli ordu ilə birlikdə üzərlərinə düşən vəzifələri şərəflə, fədakarlıqla icra edərək Azərbaycanın sərhədlərini mümkün olduğu qədər mühafizə edirdilər.

***- İlk sərhəd mühafizə qüvvələrinin Daxili İşlər Nazirliyinin tərkibində yarandığını qeyd etdiniz. Bu qüvvələrin təşkili vəzifələrinin sonrakı mərhələdə Maliyyə Nazirliyinə həvalə edildiyi məlum olur. Bu, nə ilə bağlı idi?***

-Doğrudur, sərhəd mühafizəsi sahəsində vəzifələr Maliyyə Nazirliyinə həvalə olundu. Bu qərar qəbul edilərkən real vəziyyət və ondan əvvəl görülmüş bir sıra işlər nəzərə alınmışdı. Qaçaqmalçılıq və qanunsuz ticarət dövriyyəsi getdikcə geniş miqyas almışdı. Bu da qanunsuz ticarət dövriyyəsi ilə həm də daxildə mübarizə aparmaq zərurətini doğururdu. Bu işlə əsasən maliyyə orqanları məşğul olmalı idi. Həmin qanunla gömrük idarəsi hissəsi adlandırılan qurum ləğv olunmuş və onun əsas səlahiyyətləri Maliyyə Nazirliyinə verilmişdi.

Parlamentin 1919-cu il avqust ayının 18-də keçirilən iclasında 8 bənddən ibarət “Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında” qanun layihəsi maddə-maddə səsə qoyularaq qəbul edilmişdi. Məhz həmin tarix müstəqil Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının yaradılması günü kimi qəbul edilir.

***- Sərhəd mühafizə qüvvələrinin təşkili sahəsində vəzifələrin tam yerinə yetirilməsi, vahid strukturun yaradılması mümkün oldumu?***

-Çox təəssüf ki, bu suala müsbət cavab verə bilmirik. 1920-ci ilin 27 aprel işğalı ilə AXC-nin süquta uğradılması sərhəd mühafizəsinin, gələcək müstəqil Sərhəd Qoşunlarının formalaşdırılması istiqamətində atılan addımların qarşısını aldı. Sovet dövründə Azərbaycanda sərhəd mühafizəsinin həyata keçirilməsi vəzifələri SSRİ-nin mərkəzi hakimiyyətinin tabeliyində olan məhz bu məqsədlə yaradılmış sərhəd qüvvələrinə (qoşunlarına) həvalə olundu.

***- Sovet dövründə Azərbaycanda Sərhəd Qoşunlarının yaradılması istiqamətində görülən işləri qənaətbəxş saymaq olarmı?***

-Sovet dövründə Azərbaycanda müstəqil Sərhəd Qoşunlarının yaradılmasından söhbət gedə bilməzdi. Buradakı sərhəd dəstələri Zaqafqaziya Sərhəd Dairəsinin tərkibinə daxil idi və bütün məsələlər Moskvadan idarə edilirdi. Qoşunların əksər zabit heyəti, ən başlıcası rəhbər kadrları qeyri-millətlərin nümayəndələrindən ibarət idi. Yalnız ümummilli lider Heydər Əliyev Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi dövrdən başlayaraq bu sahədə mühüm dönüş yaranmağa başlandı. Qısa müddət ərzində vəziyyəti dəyişmək çətin olsa da Heydər Əliyev çox böyük işlər gördü. Milli kadrların Zaqafqaziya Sərhəd Dairəsinin daxilində olan Azərbaycan sərhəd dəstələrində təmsil olunmalarına, onların yüksək vəzifələrə irəli çəkilməsinə xüsusi diqqət yetirilməsi, bir qədər sonra onların hətta Zaqafqaziya Sərhəd Dairəsində vəzifə tutmalarına şərait yaratdı. 1970-80-ci illərdə yetişən, SSRİ Sərhəd Qoşunlarının tərkibində xidmət edən, yüksək vəzifələr tutan milli sərhədçi kadrlar Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Sərhəd Qoşunlarının təşkilində yaxından iştirak etdilər.

Ümummilli Liderin təşəbbüsü və birbaşa rəhbərliyi ilə Azərbaycan KP MK bürosunun qərarı əsasında 1971-ci il iyul ayının 20-də Azərbaycanda yaradılan C.Naxçıvanski adına Hərbi lisey gələcək peşəkar hərbçi, eləcə də sərhədçi kadrların hazırlanmasında ilk baza rolunu oynadı. Həmin liseyin məzunu olanların əksəriyyəti hərbi təhsillərini davam etdi-



rərək həqiqi peşəkarlar kimi yetişdilər və imperiyanın dağılmasından sonra Azərbaycanda hərb sahəsində mühüm vəzifələr tutdular, milli ordu və digər qoşun növlərinin, o cümlədən Sərhəd Qoşunlarının yaradılmasında və Qarabağ müharibəsində yaxından iştirak etdilər.

***- Müstəqilliyin bərpasından sonra Azərbaycanda Sərhəd Qoşunlarının formalaşmasında siz də yaxından iştirak etmisiniz...***

-Müstəqilliyin bərpasından sonra, yeni mərhələdə ümummilli lider Heydər Əliyev Azərbaycanın yüksək hazırlığa malik Sərhəd Qoşunlarının yaranmasına, ölkənin sərhəd təhlükəsizliyinin peşəkar təminatçısı olan xüsusi qoşun növünün təşkili üçün etibarlı təməllərin qoyulmasına nail oldu. Ulu öndərin dəyərli, yüksək peşəkarlıqdan qaynaqlanan əvəzsiz tövsiyələri, ilk gündən başlayaraq Sərhəd Qoşunlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, ixtisaslı kadrların hazırlanmasına göstərdiyi mütəmadi dəstək müstəqil Azərbaycanın Sərhəd Qoşunlarının hərtərəfli formalaşmasına şərait yaratdı.

Yadımdadır, Sərhəd Qoşunlarının formalaşmağa başladığı ilk aylarda bəziləri Azərbaycan sərhədçilərinin ölkə sərhədlərinin təhlükəsizliyini lazımi səviyyədə təmin edəcəyinə şübhə ilə yanaşır, özləri də fərqinə varmadan açıq-aşkar belə təbliğat aparan xarici qüvvələrə rəvac verirdilər. Ancaq fədakar Azərbaycan sərhədçiləri çox qısa müddətdə bu iddia və inamsızlığın heç nəyə əsaslanmadığını öz yüksək xidmətləri ilə sübuta yetirdilər. Azərbaycan sərhədlərinin keçmiş SSRİ qüvvələrindən təhvil-təslim prosesi uğurla başa çatdırıldı. Bu prosesdə yaxından iştirak etmiş bütün sərhədçilər kimi, mən də qürur hissi keçirirəm. Yeri gəlmişkən, bu mühüm vəzifənin uğurla icra olunmasında o zaman Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən Heydər Əliyevin böyük nüfuzu və yenilməz siyasi iradəsi həmin bölgədəki silah-sursat və hərbi texnikanın 100 faiz Naxçıvan Sərhəd Dəstəsinin sərancamında saxlanmasına şərait yaratmışdı. Məhz Ulu Öndərin qətiyyəti nəticəsində bölgəni tərk edən rus sərhədçiləri öz şəxsi əşyalarından başqa Naxçıvandan nəinki silah-sursat və hərbi texnika, heç bir ədəd güllə də apara bilməmişdilər. Ölkənin digər sərhəd dəstələrində iki dövlət arasında razılaşdırıldığı kimi, bütün texnika və hərbi sursat 50-nin 50-yə prinsipi ilə bölünmüşdü.

Sonrakı mərhələdə Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi bu fəaliyyətlər Sərhəd Qoşunlarının bütün istiqamətlərdə möhkəmlənməsinə və inkişafına, nəinki regionda, hətta dünyada ən peşəkar qoşun kimi tanınmasına gətirib çıxardı.

Əlbəttə, yada salınası, qeyd ediləsi faktlar çoxdur. Biz veteran sərhədçilər həmin illərdə ölkə sərhədlərinin qorunmasında iştirakımızla qürur duyur, gənc nəslin xidməti işə daha məsuliyyətlə, daha həvəslə yanaşması üçün təcrübəmizi əsirgəmir, əlimizdən gələn hər şeyi etməyə hazır olduğumuzu bildiririk.

***- Bir peşəkar kimi müasir mərhələdə Sərhəd Qoşunlarının fəaliyyəti barədə daha nələri xüsusi vurğulamaq istərdiniz?***

-Müasir Sərhəd Qoşunları həm hazırlıq səviyyəsi, həm peşəkarlığı, həm də şəxsi heyətin xidməti işə münasibəti baxımdan çox yüksək səviyyədədir. Ulu Öndərin və Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyə və tapşırıqlarına bacarıqla, layiqincə əməl edirlər. Şəxsi heyətin döyüş və xidmət səviyyəsinin durmadan yüksəlməsinə nail olan Sərhəd Qoşunlarının bu günü ilə qürur duymağa haqqı çatır. Çünki Azərbaycan sərhədçiləri bu gün sözün həqiqi mənasında ölkə sərhədlərinin etibarlı təhlükəsizliyini təmin etməyə tam qadirdir. Hazırda ölkə sərhədlərini peşəkarlıqla qoruyan sərhədçilərimiz həm də Azərbaycanın qərbində, Ermənistanla sərhədlərin müdafiəsini uğurla yerinə yetirirlər. Bunu yaxın da, uzaq da, dost da, düşmən də görür və istəsə də, istəməsə də qəbul etmək məcburiyyətindədir.

***-Bu uğurların təməlində hansı faktorlar dayanır?***

- Azərbaycan sərhədçilərinin əldə etdikləri uğurların təməlində bir sıra inkarolunmaz amillər dayanır. Əvvəldə qeyd etdiyim kimi, Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevin qətiyyətli addımları. Sərhəddə xidmət səviyyəsinin yüksəlməsi və peşəkarlığın artmasını da buraya əlavə etsək, mənzərə tam aydın olar. Sərhədçilərimiz vətəninə, xalqına, dövlətinə sədaqətlə xidmət edir, yüksək peşəkarlıq göstərir, tapşırılan işə tam məsuliyyətlə yanaşırlar. Onlarda yeniliyi mənimsəmək bacarığı və daim təkmilləşməyə, özünü inkişaf etdirməyə çalışmaq həvəsi var.

***-Yəqin ki, sərhədçilərimizə bayram təbrikiniz də var***

- Sərhəd Qoşunlarının bütün şəxsi heyəti 100 illiyə - böyük bayrama, təntənəli yubileyə hazırlaşır. Sərhəd Qoşunlarının üçün hər bir əsgərinin, hər bir zabitinin bu tarixi günə xidməti vəzifələrinin öhdəsindən layiqincə gələrək cavab verəcəyinə inanırıq. Çünki onlar bunu öz şərəfli və qürur doğuran peşələri ilə haqq edirlər. Azərbaycan sərhədləri etibarlı əllərdədir. Bütün sərhədçiləri qarşıdan gələn əlamətdar yubiley münasibətilə təbrik edir, Vətən üçün çox gərəkli xidmətlərində uğurlar diləyirəm.

**✍ Şəmsiyyə Əliqızı,**
***“İki sahil”***

# Generallar Bakıda görüşür:
# qlobal təhlükəsizlik və əməkdaşlıq imkanları



**Azərbaycan paytaxtında general T.Volters ilə general V.Gerasimov arasında aparılan danışıqlar ekspertlərin bir neçə aspektdə marağına səbəb olub. Dünyanın iki çox böyük hərbi gücünün Bakıda qlobal əhəmiyyətli məsələləri müzakirə etməsi adi hadisə deyil.**

Bu baxımdan ekspertlər ABŞ və Rusiyanın görüş yeri kimi məhz Bakını seçməsinin səbəbləri ilə bağlı müxtəlif analizlər aparırlar. Aydın olur ki, burada bir sıra faktorlar rol oynayır. Azərbaycan müstəqil dövlət kimi böyük nailiyyətlər əldə etməkdədir. Beynəlxalq aləmdə onun nüfuzu durmadan artır. Mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edən Azərbaycanın sabit ölkə və etibarlı tərəfdaş olması da dünya tərəfindən qəbul edilir. Bütün bunların fonunda Amerika və Rusiyanın mühüm məsələləri Bakıda müzakirə etməleri normal görünür. Həmin kontekstdə iki generalın Bakı görüşünün geosiyasi təsiri üzərində geniş dayanmağa ehtiyac görürük.

### Ənənə: Bakı vacib beynəlxalq məsələlərin müzakirə məkanı kimi

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı general Tod Volters ilə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimovun növbəti görüşünün Bakıda keçirilməsi müəyyən mənada yaxşı bir ənənənin davamıdır. Artıq dördüncü dəfədir ki, bu növ görüşlər keçirilir. Tərəflərin məhz Bakını müzakirə yeri kimi seçməsi də təsadüfi sayılmır. Bu o deməkdir ki, ABŞ və Rusiya üçün ən uyğun məkan Azərbaycandır. Səbəbi haqqında müxtəlif fikirlər deyilir. Onların hər biri əhəmiyyətlidir. Çünki söhbət müstəqil dövlət quruculuğu kursuna dünyada olan münasibətdən gedir. Şübhə yoxdur ki, Amerika və Rusiya kimi qüdrətli dövlətlər danışıqlar üçün təsadüfi yer seçməzlər. Onlar daha çox inandıqları, əmin olduqları, etibarlı saydıqları ölkədə danışıqlar aparırlar.

Cənubi Qafqazda məhz Azərbaycanın müzakirə məkanı kimi seçilməsi böyük məna daşıyır. Hər şeydən öncə, Azərbaycan müstəqil və dinamik inkişaf edən, daxili sabitliyə nail olmuş bir dövlətdir. Uzun müddətdir ki, Azərbaycan regionda bu sabitlik səviyyəsinə görə digər ölkələrdən fərqlənir. Daxili sabitlik sürətli islahatlarla müşayiət olunur. Bu iki faktor Azərbaycanı Cənubi Qafqazın geosiyasi qovşağına çevirib. Bunun əlamətləri əsasən beynəlxalq layihələrdə, irimiqyaslı tədbirlərdə və davamlı inkişafda özünü göstərir.

Beynəlxalq layihələr də başlıca olaraq enerji təhlükəsizliyi, regional və qlobal əməkdaşlıq, nəqliyyat dəhlizlərinin formalaşması və mədəniyyətlərarası dialoqun təşkili ilə əlaqəlidir. Bu, faktiki olaraq, Azərbaycanı bütün istiqamətlərdə Cənubi Qafqazın lider dövləti mövqeyinə çıxarıb. Hazırda burada istənilən mövzuda yüksək səviyyəli müzakirələr təşkil etmək mümkündür.

Nüfuzlu beynəlxalq tədbirlər kimi Azərbaycan sivilizasiyalar, dinlər və mədəniyyətlər arasında dialoqun təşkili ilə bağlı çox vacib mövzularda müzakirələr təşkil edir. İndi bütün dünya Bakı Beynəlxalq Humanitar Forumundan, "Bakı prosesi"ndən və başqa yeni tədbirlərdən bəhs edir. Hər kəs bilir ki, bu möhtəşəm layihələrin və uğurla təşkil edilən tədbirlərin təşəbbüskarı Azərbaycan rəhbərliyidir. Bunlara beynəlxalq idman yarışlarının təşkilini də əlavə etmək gərəkdir. Azərbaycan hər kəsə sübut edib ki, bu növ tədbirləri də yüksək səviyyədə keçirə bilir.

Nəqliyyat dəhlizlərinin formalaşmasında Azərbaycanın oynadığı aktiv rol ayrıca mövzudur. İndi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri reallaşır. Bu, yalnız yük daşımaq imkanı deyil, həm də mədəniyyətlərin, sivilizasiyaların dialoqunu, ünsiyyətini təşkil etmək deməkdir. Dünyanın onlarla ölkəsinin nümayəndələri bu dəhlizlər vasitəsilə təmasda olur və səmərəli fəaliyyət göstərirlər. Deməli, Azərbaycan çox sayda ölkələrin səmərəli və qarşılıqlı faydalı əməkdaşlığını ən yüksək səviyyədə təşkil edə bilir.

Bütün bunlara yanaşı, Azərbaycan Cənubi Qafqazda əməkdaşlığın yeni formatları ilə bağlı ən çox təşəbbüs irəli sürən ölkədir. Prezident İlham Əliyevin ikitərəfli, üçtərəfli və dördtərəfli əməkdaşlıqla ilgili təklif və təşəbbüsləri artıq özünün yüksək səmərəsini göstərib. Bu baxımdan Bakının Rusiya-İran-Azərbaycan əməkdaşlıq formatını böyük uğurla reallaşdırması ekspertlərin diqqətini daha çox çəkib. Çünki tarixən Azərbaycan Rusiya və İranda imperiya dövründə onların tərkibində olub. İndi isə müstəqil dövlət kimi bu iki böyük dövlətin əməkdaşlığına yeni təkan verir. Bu mənada İlham Əliyevin əməkdaşlıq formatı təklifi son dərəcə böyük maraq doğurur və Azərbaycan dövlətinə etibarlılıq qazandırır.

### Geosiyasi kontekst: perspektivli proses

Əlbəttə, söhbət əməkdaşlıqdan düşərkən Türkiyə və Qərb istiqamətini unutmaq olmaz. Türkiyə Azərbaycana ən yaxın, qardaş dövlətdir. Onunla əməkdaşlıq avtomatik və aksiomatik bir işdir. Ancaq məsələ eyni zamanda müstəqil dövlət kimi qarşılıqlı faydalı və etibarlı əlaqələrin yaradılmasından gedir. Azərbaycan bu istiqamətdə də bir sıra müstəqil dövlətlər üçün səciyyəvi olan "böyük-kiçik qardaş" sindromunu aşmış ölkədir. İndi onun Türkiyə ilə sabit, bərabərhüquqlu, qarşılıqlı faydaya əsaslanan münasibətləri mövcuddur. Deməli, Azərbaycan özünün çox güclü qardaşı ilə belə əməkdaşlığını müstəqil dövlət kimi konstruktiv müstəvidə qura bilir.

Bu baxımdan Bakının dünyanın ən inkişaf etmiş hissəsi olan Qərb dövlətləri ilə münasibətləri çox maraqlıdır. Bu istiqamətdə Azərbaycan rəhbərliyinin yüksək nailiyyətlər əldə etdiyi danılmaz faktdır. İki məqam üzərində dayanaq. Əvvəla, Azərbaycan-ABŞ əlaqələri müasir beynəlxalq hüquq və konstruktiv əməkdaşlıq şərtlərinə tam uyğun inkişaf edir. Amerika Prezidentinin İlham Əliyevə ünvanladığı məktublarda həmin məqam aydın olaraq öz ifadəsini tapıb.

Donald Tramp Azərbaycanın etibarlı, perspektivli tərəfdaş olduğunu dəfələrlə vurğulayıb, Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinə verdiyi töhfələri ayrıca qeyd edib, əlavə olaraq, daha geniş geosiyasi məkanda bu missiyanı reallaşdıra biləcəyini ifadə edib. Bu onu göstərir ki, Vaşinqton Azərbaycanın etibarlı, sabit və perspektivli müstəqil dövlət olduğunu, beynəlxalq təhlükəsizliyə qiymətli töhfələr verdiyini etiraf edir. Bu kontekstdə Azərbaycan Prezidentinin bir fikri çox maraqlıdır. İlham Əliyev ifadə edib: "Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik".

Nəhayət, Avropa İttifaqı ilə Azərbaycan arasında strateji əməkdaşlıq əlaqələri formalaşıb. Bu, təhlükəsizlik məsələlərini, beynəlxalq terrorla mübarizəni, enerji layihələrini əhatə edir. Brüssel Azərbaycana perspektivli tərəfdaş kimi baxır. Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun regiona son səfəri zamanı ifadə etdiyi fikirlər bunu bir daha təsdiq edir.

Beləliklə, dünyanın iki böyük hərbi gücünün vacib və aktual qlobal məsələləri Bakıda müzakirə etməyə qərar verməsi səbəbsiz deyil. Azərbaycan bütün parametrlərinə görə bu cür yüksək səviyyəli müzakirələrə uyğun bir məkandır. Amerika və Rusiya generallarının Bakıda rəsmi şəxslərlə görüşləri zamanı ifadə etdikləri fikirlər bir daha sübut edir ki, bu dövlətlərin hərbi, təhlükəsizlik və müdafiə sahələrində Bakı ilə əməkdaşlığa maraqları az deyil. Hər iki ölkə bundan sonra da Azərbaycanla həmin istiqamətdə əlaqələri gücləndirmək niyyətindədir.

T.Volterslə V.Gerasimovun Bakıda Suriya, Əfqanıstan ixtilaflarını, beynəlxalq terror, qaçaqmalçılıq və digər aktual məsələlərlə bağlı apardıqları müzakirələr göstərir ki, tərəflər hazırda bütün dünya üçün əhəmiyyətli problemlərin nəzərdən keçirilməsində maraqlıdırlar. Bakı görüşü ayrıca göstərdi ki, hələ Vaşinqton və Moskva ortaq mövqeyə gələ bilmirlər. Lakin qlobal miqyasda aktual olan və dünyanın təhlükəsizliyi üçün əhəmiyyət daşıyan məsələlərin Bakıda müzakirə edilməsi konkret məna daşıyır.

Beləliklə, ABŞ və Rusiyanın Bakıda yüksək səviyyədə müzakirələr aparması Azərbaycanın beynəlxalq nüfuzunun getdikcə daha da artdığını nümayiş etdirir. Qərb və Rusiya üçün önəmli olan hərbi-müdafiə xarakterli mövzuların Azərbaycan paytaxtında müzakirə edilməsi həm də regional münaqişələrin ədalətli həlli üçün bir şansı ifadə edir. Bu cür görüşlərdə Azərbaycanın məsələyə münasibəti haqqında daha dolğun informasiyalar alan generallar, əlbəttə, həqiqəti bilməklə daha qətiyyətli mövqe tuta bilərlər. Xüsusilə onlar digər məsələlərlə yanaşı, həm də separatizm və terrorla mübarizəni də müzakirə edirlər.

Bunlar onu göstərir ki, Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi beynəlxalq nüfuzunu sürətlə yüksəldir və daha etibarlı tərəfdaş kimi qəbul edilir. Bu keyfiyyətdə Azərbaycanın müxtəlif beynəlxalq proseslərdə iştirakı daha intensiv xarakter alır. Bu prosesin yeni səviyyəyə yüksəlməsi, əlbəttə, regionda bir sıra çətinliklərin aradan qaldırılmasına yardım edəcəkdir. İki generalın Bakıdakı son görüşünə bu prizmadan baxdıqda, onun növbəti mərhələnin başlanğıcı olduğu qənaəti yaranır. Yeni ABŞ-Rusiya münasibətlərində konstruktiv bir mərhələ başlaya bilər.

**Newtimes.az**

## "MeqaFon" Dağlıq Qarabağla bağlı yanlış informasiyaya görə daxili təhqiqat aparır



Rusiyanın ən böyük mobil operatoru "MeqaFon" şirkəti öz saytında Dağlıq Qarabağ haqqında da yerləşdirilmiş yanlış informasiya ilə bağlı daxili təhqiqat aparır.

AZƏRTAC xəbər verir ki, bu barədə "MeqaFon"nun Direktorlar Şurasının sədri Yevgeni Bıstrıxın imzası ilə Azərbaycanın Rusiyadakı səfirliyinə daxil olmuş məktubda bildirilir.

Məktubun tam mətnini təqdim edirik: "Şirkətin saytının yenilənməsi zamanı Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkibinə daxil olmayan müstəqil ərazi kimi təqdim edilməsi barədə yanlış informasiya aşkar edilib. Şirkətin menecmentinin bunu aşkar etməsindən sonra səhv məlumat dərhal düzəldilib.

Hazırda "MeqaFon" insidentlə bağlı daxili təhqiqat aparır. Bu məlumata görə, məsul olan əməkdaşlar vəzifələrinin icrasından uzaqlaşdırılıb və onlar Rusiya Federasiyasının Əmək Məcəlləsinə müvafiq olaraq intizam cəzası alacaqlar.

"MeqaFon"un əsas iş prinsiplərindən biri öz kommersiya fəaliyyətini siyasi və dini kontekstdən uzaq tutmaqdır. Biz baş verən hadisədən təəssüfləndiyimizi bildirir, təsdiq edirik ki, səhv bilərəkdən deyil və hər hansı qərəzli niyyət olmadan buraxılıb. Şirkət bu qərəzsiz insident nəticəsində hisslərinə toxunulmuş hər kəsdən üzr diləyir".

# Milli maraqlar həyata keçirilən siyasətin ana xəttidir

## Milli Məclisin deputatı, Azərbaycanın AVRONEST PA-da nümayəndə heyətinin rəhbəri, professor Sahibə Qafarovanın yap.org.az saytına müsahibəsi

***- Sahibə xanım, ötən həftə Bakıda Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Volters ilə növbəti görüşü keçirildi. Belə bir mühüm görüşə yenidən məhz Bakının ev sahibliyi etməsi beynəlxalq mediada da yüksək qiymətləndirildi və bu faktın Azərbaycanın qlobal təhlükəsizlikdə oynadığı mühüm rolun göstəricisi olduğu vurğulandı. Sizin bu məsələ ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı...***

- Bilirsiniz ki, Rusiya Silahlı Qüvvələrinin və NATO-nun rəsmiləri Bakıda əvvəllər də görüşüblər və müəyyən məsələlər ətrafında müzakirələr aparıblar. Bu, Azərbaycanın yüksək nüfuzunun göstəricisi olmaqla yanaşı, həm NATO, həm də Rusiyanın ölkəmizə etibar etdiyinin ifadəsidir. Dünyanın siyasi nəbzinin yenə paytaxt Bakıda vurması Azərbaycana çoxsaylı strateji dividentlər qazandırır. Ümumilikdə isə, sülh və dialoq məkanı kimi növbəti dəfə Bakının seçilməsi Azərbaycanın beynəlxalq miqyasda rolunu və nüfuzunu daha da artıran amildir. Belə mühüm görüşlərin Bakıda keçirilməsinin əsas səbəblərindən biri Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi nüfuzu və dövlətimizin regional və qlobal proseslərdə aktiv rol alması ilə bağlıdır. Çünki sabitlik və təhlükəsizlik adası kimi xarakterizə edilən Azərbaycan regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa müstəsna töhfələr verir. Bakı, həmçinin mühüm dialoq və əməkdaşlıq məkanı kimi beynəlxalq miqyasda ciddi nüfuza malikdir.

Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslər sivilizasiyalararası dialoqun inkişafına, multikultural dəyərlərin, tolerantlığın təbliğinə mühüm töhfələr verir. Azərbaycan Şərq ilə Qərb arasında körpü rolunu oynayır. Azərbaycan NATO-nun və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyil, amma ABŞ, Avropa və Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkədir.

Azərbaycan milli maraqlara əsaslanan müstəqil siyasət yeridir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Azərbaycan həm ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirir, həm də sivilizasiyalararası dialoqa, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verir. Başqa sözlə, Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi regionda və daha geniş coğrafiyada sabitləşdirici rol oynayır, ölkəmizin moderatorluğu, liderliyi ilə reallaşdırılan geostrateji əhəmiyyətli layihələr regional və qlobal təhlükəsizliyə, beynəlxalq əməkdaşlığın dərinləşməsinə əhəmiyyətli töhfədir. Bununla yanaşı, ölkəmiz dünyada sabitlik adası kimi tanınır, ölkəmizdə etibarlı təhlükəsizlik mühiti hökm sürür. Ona görə də paytaxt Bakı bir çox tədbirlər, görüşlər üçün məkan kimi seçilir. Xüsusilə də, qlobal güc mərkəzlərinin hərbi rəhbərliyinin görüşünün Bakıda keçirilməsi çox mühüm əhəmiyyətə malikdir.

***- Bu qəbildən olan mühüm tədbirlərdən biri - UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası da Bakıda ən yüksək səviyyədə təşkil olundu. Bu tədbirin əhəmiyyəti və UNESKO - Azərbaycan münasibətlərinin mövcud vəziyyəti barədə nə deyə bilərsiniz?***

- Azərbaycanın UNESKO ilə əlaqələri xüsusilə təqdirəlayiqdir. Respublikamızla bu təşkilat arasında münasibətlərin də əhatə dairəsi getdikcə genişlənir. Belə ki, Azərbaycan öz imkanlarını təqdim edərək UNESKO ideyalarının reallaşmasında daim fəal rol oynayır. Eyni zamanda, qurum Azərbaycan həqiqətlərinin, əlahiddə xüsusən zəngin mədəniyyətimizin dünyada təbliğində kifayət qədər səmərəli platforma qismində çıxış edir.

Azərbaycanla UNESKO arasında uğurlu əməkdaşlıq nəticəsində İçərişəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı UNESKO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alır. Bu mühüm hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha yüksək dəyərləndirildiyinin təsdiqidir. Musiqi xəzinəmizin inciləri olan muğam və aşıq sənəti, Novruz bayramı, tar ifaçılığı sənəti də Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olunub. Bir sözlə, bu əməkdaşlıq Azərbaycanın sərvətlərinin beynəlxalq məkanda dəyərləndirilməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan-UNESKO əməkdaşlığının möhkəmlənməsindən söhbət açarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna rolunu xüsusi vurğulamaq lazımdır. Onun davamlı səyləri və məqsədyönlü fəaliyyəti sayəsində Azərbaycan-UNESKO əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Mehriban xanım Əliyeva Azərbaycanın zəngin mədəniyyətinin qorunması, öyrənilməsi və tədqiqində xidmətlərinə görə UNESKO tərəfindən 2004-cü ilin sentyabr ayında qurumun şifahi və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülüb. Mehriban xanım Əliyevanın səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESKO-nun müvafiq siyahılarında yer almaqdadır.

İyulun 7-də Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi isə Azərbaycanın UNESKO-da apardığı davamlı işin, həmçinin maddi mədəniyyət nümunələrinin qorunmasına göstərdiyi xüsusi diqqətin növbəti ifadəsidir. Bu fakt dünyanın mədəni-turistik xəritəsində Azərbaycanın mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirir. Bakıda keçirilən sessiyada çıxardılan qərar Azərbaycan xalqının dünya mədəniyyətinə xüsusi töhfəsinin beynəlxalq səviyyədə növbəti təsdiqidir.

***- Sahibə xanım, bir çox mütəxəssislər Azərbaycanda həyata keçirilən gender siyasətini uğurlu bir model kimi yüksək qiymətləndirirlər. Belə bir fikir ifadə olunur ki, Azərbaycanda həyata keçirilən gender siyasəti nəticəsində ölkəmizdə qadınların cəmiyyət həyatının bütün sferalarında fəal iştirakına əlverişli şərait yaradılıb. Siz***



***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini kimi, Azərbaycanda gender mühitini, bu istiqamətdə görülən işləri necə qiymətləndirirsiniz?***

- Bəli, Azərbaycan gender məsələlərinə böyük əhəmiyyət verən, qadın hüquqlarının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirən dövlətlərdən biridir. İyunun 7-də Parisdə Milli Assambleyada Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun təşkilatçılığı ilə keçirilən Azərbaycanda qadınlara səsvermə hüququ verilməsinin 100 illiyinə həsr olunmuş "Qadın hüquqları: Şərq və Qərbin qovuşuğunda Azərbaycan nümunəsi" adlı konfransda ölkəmizin 100 il əvvəl dinindən, cinsindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara eyni hüquqlar verən, qadınların səsvermə hüququnu təmin edən ilk dünyəvi müsəlman dövləti olduğu vurğulandı, qadın hüquqları sahəsində Azərbaycanın digər ölkələrə nümunə olduğu bir daha qeyd olundu.

Qeyd etməliyəm ki, gender məsələlərinin həlli, cinsi ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizənin gücləndirilməsi BMT-nin 2030-cu il Dayanıqlı İnkişaf Məqsədlərindən biridir.

***- Yeri gəlmişkən, bir müddət əvvəl Yaponiyanın paytaxtı Tokioda Qadın Siyasi Liderlərin növbəti Sammiti keçirildi. Siz bu sammitdə ölkəmizi təmsil edirdiniz. Sammitdə müzakirə olunan mövzular sırasında "2030-cu il Dayanıqlı İnkişaf Məqsədləri"ndən biri kimi gender məsələlərinin uğurlu həlli olub. İstərdik həm bu, həm də ümumiyyətlə, sammit barədə məlumat verəsiniz.***

- İyunun 25-27-də Yaponiyanın paytaxtı Tokioda Qadın Siyasi Liderlərin növbəti Sammiti keçirilib. Toplantıda qadınların ictimai-siyasi həyatda rolu, onların dünyada baş verən proseslərə təsir imkanları, sülhün, əmin-amanlığın, sabitliyin bərqərar olmasında fəallığının artırılması, qadın siyasi xadimlərin əməkdaşlığının genişləndirilməsi məsələləri müzakirə olunub. Tədbir Yaponiya Nümayəndələr Palatası və Qadın Siyasi Liderləri Təşkilatı tərəfindən keçirilib.

İyunun 26-da konfrans çərçivəsində qadın sahibkarlığının inkişafı, qadınların iqtisadi sahədə fəaliyyətinin genişləndirilməsi mövzusunda keçirilən panel çıxışlarının müzakirələrində çıxış edərək bildirdim ki, Azərbaycan qadınları ictimai-siyasi həyatda olduğu kimi, sahibkarlığın inkişafına da öz töhfələrini verir. Azərbaycan Hökuməti ölkəmizdə qadın sahibkarlığının inkişaf etdirilməsinə daim dəstək göstərir.

Tədbirdə müxtəlif ölkələri təmsil edən nümayəndələr də öz ölkələri barədə təqdimat ediblər. Mən də ölkəmizdə qadın hüquqlarının qorunması, gender məsələlərinin uğurlu həlli istiqamətində görülən tədbirlər barədə geniş məlumat verdim. Qeyd etdim ki, bu gün Azərbaycanın qadınları icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə sahələrində, biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, hüquq mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər vəzifələrdə təmsil olunurlar.

Beynəlxalq tədbirdə eyni zamanda, münaqişələrdən, onun yaratdığı miqrant probleminin nəticələri haqqında məlumat verdim. Bildirdim ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində minlərlə azərbaycanlı, eləcə də qadınlar və uşaqlarımız öldürülüb, bir milyondan çox vətəndaşımız öz doğma torpaqlarından və evlərindən didərgin salınıb, onlar qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olublar. Azərbaycan dövləti qaçqın və köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində çox genişmiqyaslı tədbirlər həyata keçirib. Ancaq buna baxmayaraq, bu insanlar qaçqın, köçkün həyatı yaşayırlar. Təəssüf ki, bu, onların evlərinə qayıtmaq və ləyaqətlə yaşamaq hüququ təmin olunana qədər davam edəcək. Mövcud problemlərdən biri reabilitasiya və inteqrasiya məsələləridir. Belə ki, qadın qaçqın və məcburi köçkünlərin münaqişə dövründə yaşadıqları zorakılıqların yaratdığı ciddi psixoloji travmalar sonrakı dövrdə onların həyatlarında mənfi fəsadlara yol açır. Bu, onların cəmiyyətə inteqrasiyasında da böyük çətinliklər yaradır.

Bu kimi problemlərin həlli, ilk növbədə, münaqişələrin və işğal faktının aradan qaldırılmasıdır. Azərbaycan bu məsələdə beynəlxalq ictimaiyyətin səylərini təqdir edir, bununla belə problemlərə ədalətli, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində yanaşmanın vacibliyini vurğulayır.

Qeyd edim ki, məndən əvvəl tədbirdə Ermənistan təmsilçisi çıxış etdi. O, ölkəsinin işğalçılıq siyasətini ört-basdır etmək üçün faktları təhrif etdi, Ermənistanla bağlı uydurma fikirlər səsləndirdi. Çıxışımda erməni siyasətçinin iddialarına da cavab verərək bu ölkənin bütün beynəlxalq hüququn prinsiplərini pozaraq işğalçılıq siyasətini davam etdirdiyini, işğal faktının aradan qaldırılması ilə bağlı beynəlxalq çağırışlara, BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının dərhal və qeyd-şərtsiz azad olunmasına dair 4 qətnaməsi və digər təşkilatlar tərəfindən qəbul olunan sənədlərə məhəl qoymadığını xatırladaraq bildirdim ki, Ermənistan regional təhlükəsizliyə ciddi təhdid yaradan monoetnik bir ölkədir.

## Ermənistan mətbuatının yaydığı məlumatlar əsassızdır



Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası istiqamətində yerləşən bölmələri tərəfindən erməni kəndinin atəşə tutulması barədə Ermənistan mətbuatının yaydığı məlumatın heç bir əsası yoxdur. Bu məlumat yalandır və dezinformasiya xarakteri daşıyır.

Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər.

"Eyni zamanda bildiririk ki, bu gün səhər saatlarında Göygöl rayonu ərazisində təsərrüfat işləri görən mülki traktor Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən snayper atəşinə məruz qalıb, itki yoxdur. Cavab tədbirləri nəticəsində düşmən susdurulub", - deyə nazirliyin məlumatında bildirilib.

# "Yay məktəbi"nin iştirakçıları Lerikdə



**Yeni Azərbaycan Partiyasının (YAP) təşkil etdiyi "Gənc liderlər üçün yay məktəbləri"nin ikinci turu çərçivəsində gənclərin iyul ayının 17-də Lerik rayonu ilə tanışlığı olub.**

Rayon mərkəzində Şəhidlər Kompleksini ziyarət edən gənclərə məlumat verilib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Lerik rayonu 140 şəhid verib. Onların 5-i şücaətlərinə görə Milli Qəhrəman adına layiq görülüblər. Azərbaycanın ilk Milli Qəhrəmanları sırasında da leriklilərin adı var. Rayonda hazırda 80 nəfər Qarabağ əlili yaşayır.






Sonra ümummilli lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsini ziyarət edən gənclər Ulu Öndərin əziz xatirəsini ehtiramla anaraq, abidəsi önünə gül-çiçək düzüblər.

Gənclərin dünyada analoqu olmayan Uzunömürlülər muzeyi ilə tanışlığı isə böyük marağa səbəb olub. Gənclərə məlumat verilib ki, muzey 1991-ci ildən fəaliyyət göstərir. Dünyada yeganə olan bu mədəniyyət ocağının binası müasir memarlıq elementlərindən istifadə edilməklə 2010-cu ildə inşa olunub. Həmin il iyunun 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə muzeyin yeni binasının açılışı olub.

Bildirilib ki, rayonda vaxtilə 500 nəfərdən çox uzunömürlü yaşayıb. Hazırda iki salondan ibarət muzeydə yaşı yüzdən yuxarı olan 50-dən çox lerikli haqqında 2 mindən çox eksponat, o cümlədən maraqlı məlumatlar, fotoşəkillər yer alıb. Buradakı 40-dək fotoşəkilin müəllifi olan fransız fotoqrafı Fredrik Laşop həmin əsərləri Parisdə təşkil olunmuş "Uzunömürlülər diyarına səyahət" sərgisində nümayiş etdirib. Daha sonra bu fotolar Fransanın ölkəmizdəki səfirliyi tərəfindən Lerikə gətirilərək Uzunömürlülər muzeyinə hədiyyə olunub.



Vurğulanıb ki, Uzunömürlülər muzeyində yaşlı insanların şəkilləri asılmaqla, həm də onlara məxsus olan etnoqrafik materiallar, yaşadıqları dövrə aid tarixi əşyalar, kənd təsərrüfatında işlətdiyi alətlər, əl işləri də nümayiş etdirilir.

Daha sonra gənclər Bayraq Muzeyi ilə tanış olublar. Onlara məlumat verilib ki, Bayraq Muzeyi və hündürlüyü 36 metr olan bayraq dirəyinin yerləşdiyi Dövlət Bayrağı Kompleksi Lerik şəhərinin mərkəzində, ümummilli lider Heydər Əliyevin adını daşıyan meydanın ərazisində yerləşir. Bayraq Muzeyinin Prezident İlham Əliyevin iştirakı ilə 2018-ci ilin oktyabr ayının 15-də açılışı olub.

Bayraq Muzeyi ilə tanışlıqdan sonra gənclər Heydər Əliyev Mərkəzində olublar. Mərkəzlə tanış olan gənclərə məlumat verilib ki, Mərkəz 25 iyun 2010-cu il tarixində Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Ümumi sahəsi 420 kvadratmetr olan Mərkəzin 360 kvadratmetrində ekspozisiya zalı yerləşir ki, bu zaldan həm də konfrans salonu kimi istifadə olunur. Binanın 25 kvadratmetrində kitabxana fəaliyyət göstərir, 35 kvadratmetrində isə inzibati və yardımçı otaqlar yerləşir. Mərkəzin ekspozisiya zalında ümummilli liderimiz Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən 138 fotoşəkil, 49 sənəd və 1 büst nümayiş etdirilir. Ekspozisiya zalının bir bölməsi Prezident İlham Əliyevin Lerikə tarixi səfərləri barədə məlumat verir.

Gənclər daha sonra Lerik Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə tanış olublar. Gənclərə Muzeyin tarixi və burada saxlanılan eksponatlar barədə məlumat verilib. Bildirilib ki, Lerik Azərbaycanın qədim tarixə malik bölgələrindəndir. Tarix-diyarşünaslıq muzeyinin binası ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə ötən əsrin 80-ci illərində tikilib. 5 bölmədən ibarət muzeydə 4 min eksponat nümayiş etdirilir. Onların arasında eramızdan əvvəl XIV-XII əsrlərə aid tunc xəncərlər, ox ucluqları, amuletlər və s. maddi-mədəniyyət nümunələri var. Muzeydə müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, ümummilli lider Heydər Əliyevə həsr olunmuş xüsusi bölmə yaradılıb. Vətən uğrunda döyüşlərdə həlak olmuş lerikli şəhidlərə - beş Milli Qəhrəmana həsr olunmuş guşələr də var.

Gənclər muzeylə yaxından tanış olublar, burada saxlanılan eksponatların rayonun qədim tarixini əks etdirən nümunələr kimi qiymətli olduğunu vurğulayıblar.



Rayonla tanışlığı başa vuran gənclər günün ikinci yarısında "Yaradıcı gənclərin inkişafına dövlət dəstəyi" mövzusunda təlimdə iştirak ediblər. YAP Gənclər Birliyi Ofisinin koordinatoru Elmar Məmmədov təlimin mövzusu və faydalarından bəhs edib. Sonra təlimin moderatoru, YAP Binəqədi rayon təşkilatının baş təlimatçısı Kubra Əliyarlı yaradıcı gənclərə göstərilən dövlət qayğısından danışıb. Sonda gənclərin sualları cavablandırılıb.




Tanışlıq və təlimlərdən sonra gənclər arasında müxtəlif idman yarışları, yaradıcı müsabiqələr keçirilib. Günə interaktiv, intellektual, praktik oyunlarla yekun vurulub.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# ÖZÜNÜMƏŞĞULLUQ PROQRAMI:
## hədəf sosial-iqtisadi inkişafda vətəndaşların iştirakını təmin etməkdir



**Prezident İlham Əliyevin son dövrdə apardığı, əsas məqsədi daxili resursların səmərəli istifadə etməklə tələb-təklif münasibətlərinin tənzimlənməsinə yönələn islahatlar arasında özünüməşğulluq proqramı xüsusilə fərqlənir. İşsizliyin və qeyri-formal əmək münasibətlərinin aradan qaldırılmasına önəmli təsir göstərən, əhalinin rifah halının yaxşılaşdırılmasına, həssas qruplara dövlət qayğısının artırılmasına yönələn kompleks tədbirlərin tərkib hissəsi olan bu proqramın davamlı sistem kimi təkmilləşdirilməsinə diqqət artırılır. Dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan, modern, çevik və optimal mexanizmlər əsasında qurulan sosial islahatların əsas şərti olan bərabərlik prinsipləri bu proqramın da əsas hədəflərindəndir.**

Beynəlxalq təcrübədə özünü doğruldan, daha çox insanı əhatə edən, mütərəqqi üsul olan özünüməşğulluq siyasəti müasir dövrümüzdə daha aktualdır.

"Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında"kı Fərmanda, "Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamda da qeyd olunduğu kimi, əmək bazarında təklif və tələb arasında tənzimləmə siyasətinə, işsizliyin və qeyri-formal əmək münasibətlərinin, inzibatçılığın aradan qaldırılmasına yönəldilən özünüməşğulluq proqramının əhatə dairəsi genişlənir.

BMT-nin qlobal inkişafla bağlı bütün təşəbbüslərində iştirak edən, mütərəqqi çağırışlara qoşulan Azərbaycanda Minilliyin İnkişaf Məqsədlərinin müvəffəqiyyətlə həyata keçirilməsi ölkəmizdə məşğulluq siyasətinin davamlı olmasına imkanlar yaradır. Azərbaycan BMT-nin üzvü olan dövlətlərin iştirakı ilə təşkilatın Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş və qüvvəyə minmiş Dayanıqlı İnkişaf Məqsədləri adlanan 17 məqsədi və bu məqsədlərə müvafiq olaraq müəyyən edilmiş 169 hədəfi özündə birləşdirən "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf gündəliyi" razılaşmasına da qoşulub.

Bu günlərdə BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan nümayəndə heyətinin iştirakı qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqinə artan diqqəti göstərir. Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun başçılıq etdiyi nümayəndə heyətinin tədbirdə ölkəmizi təmsil etməsi, Azərbaycanın İkinci Könüllü Milli Hesabatında göstərilən məsələlərin maraqla qarşılanması respublikamızda aparılan sosial islahatların beynəlxalq səviyyədə dəstəklənməsi deməkdir. Hesabatda qeyd olunduğu kimi, son dövrlərdə ölkəmizdə inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi, dayanıqlı iqtisadi artım, tam və səmərəli məşğulluğun, layiqli işlə təmin olunmanın dəstəklənməsi, "heç kimin geridə qalmaması" prinsiplərinə əsaslanaraq əhalinin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılması həyata keçirilən islahatların əsasında insan amilinin olduğunu göstərir. 7 mindən artıq insanı əhatə edən özünüməşğulluq proqramına qoşulanların sayının artması ailə büdcələrinin möhkəmlənməsini də təmin edir.

"Bizim özünüməşğulluq proqramına böyük ümidlərimiz var. Bu proqram həm iqtisadi inkişafımıza təkan verəcək, xüsusilə regionlarda həm məşğulluq probleminin həllini sürətləndirəcək, eyni zamanda, bəzi vətəndaşlarımızı əlbəaxımlıq vərdişindən çəkindirəcək. Özünüməşğulluq proqramını icra etmək üçün indi kifayət qədər vəsait var. Hesab edirəm ki, hər il 6-7 min insan bu proqrama cəlb olunarsa, bir neçə ildən sonra heç sosial yardıma da ehtiyac qalmayacaq və insanlar öz halal zəhmətləri ilə pul qazanacaqlar, ailələrini saxlayacaqlar və ölkə iqtisadiyyatına töhfələrini verəcəklər" söyləyən Prezident İlham Əliyevin səyləri nəticəsində dünya dövlətlərini narahat edən iqtisadi böhran dövründə belə respublikamızda işsizlik minimuma endirilmiş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün sosial islahatların tətbiqinə diqqət artırılmışdır. Əhalinin sürətli artımı bu sahənin daim diqqətdə saxlanılmasını tələb edir. BMT-nin Fəaliyyət Proqramına uyğun olaraq ölkəmizdə vətəndaşların ailə planlaşdırılması və reproduktiv sağlamlıq, əhalinin ümumi inkişafı, gender bərabərliyi ilə bağlı həyata keçirilən islahatlar barədə maarifləndirilmənin aparılmasının təməlində də məşğulluq problemlərinin həlli dayanır. Beynəlxalq maliyyə təşkilatlarının hesabatları da təsdiqləyir ki, Azərbaycan son illərdə yüksək inkişaf templərinə, sosial islahatların tətbiqinə görə dünyanın lider dövlətləri arasındadır.

Özünüməşğulluq proqramının tətbiqi ilə bilavasitə məşğul olan, daxili əmək resurslarından səmərəli istifadəni aktuallaşdıran "Ailə Biznesinə Asan Dəstək" ("ABAD") pilot layihəsi artıq özünü doğruldub. Proqramda iştirak etmək istəyənlərin sayı artır. Milli-mənəvi dəyərlərimizi əsrlərdən bəri yaşadan xalq sənətkarlığının qorunub təbliğ edilməsində böyük əhəmiyyətə malik özünüməşğulluq proqramı yaşından, cinsindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşını əhatə edir, insanlara ölkənin iqtisadi inkişafında iştirak etmək imkanı qazandırır. Daimi tezis olan ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılmasında, qeyri-neft sektorunun genişləndirilməsində xüsusi yeri olan özünüməşğulluq proqramında evdar qadınların iştirakı üçün yaradılan şərait aztəminatlı ailələrin büdcələrinin möhkəmlənməsinə əlavə imkanlar açır.

Günümüzün əsas çağırışı olan, işsizliyin tam aradan qaldırılmasına, məşğulluq problemlərinin həllinə diqqəti artıran dövlət başçımız İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması haqqında" Fərman da bu məqsədə xidmət edir. Hədəfi ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaqdır. Məqsəd ailə biznesinə, insanların həyat şəraitinin yaxşılaşmasına dəstək göstərməkdir.

ABAD layihəsi, bu istiqamətdə yaradılan mərkəzlər sahibkarları, kənd təsərrüfatı məhsullarını emal edən fermerləri müasir standartlara uyğun zəruri avadanlıq, texnologiyalarla təchiz edir, xammalın hazır vəziyyətə gətirilməsinə yardım göstərir. Nəticə isə uğurludur.

Fermer təsərrüfatlarında çalışan ailələri lazımi avadanlıqlarla təmin edən, keyfiyyətli, orqanik məhsul istehsalını artıran, məşğulluq proqramında iştirak edən ailələrə hüquqi, maddi -mənəvi dəstək göstərən ABAD-ın yerli mərkəzləri yeni layihələr üzrə fəaliyyətini davam etdirir. İlk mərhələdə 62 ailənin 500 adda əl işinin satışa çıxarıldığı daxili bazarımızda xalq sənətkarlıq nümunələrini yaşadan nümunələrin sayı, növü, keyfiyyəti də artmaqdadır. Ölkəmizə gələn turistlərin milli ornamentli əl işlərinə marağını nəzərə alan, ABAD mərkəzləri ilə əməkdaşlıq edən ailələrin sayı artıq yüzlərlədir. ABAD-ın təşkil etdiyi kurslarda müvafiq peşələri öyrənən qadınlar qurumun dəstəyi, vəsaiti ilə bərbər, dərzi peşələrinə yiyələnirlər. Bölgələrdə yaşayanlar xalçaçılıq, dulusçuluq, dülgərlik, xarratlıqla məşğul olaraq el sənətkarlıq nümunələrini hazırlayırlar.

Özünüməşğulluq proqramının tətbiqi daha çox qadınlara, aztəminatlı ailələrə, gənclərə və miqrantlara mənfi təsir edən qeyri-rəsmi formada əmək fəaliyyəti ilə məşğulluğun da qarşısını alır. "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrası ilə bağlı görülən işlər intensivləşir.

Azərbaycanda qeyri-formal əmək münasibətlərindən formal əmək münasibətlərinə keçidin stimullaşdırılmasına yönələn institusional və praktiki platformanın formalaşdırılması, vətəndaşların məşğulluğunun təmin edilməsi, layiqli iş yerlərinin yaradılması, onların əmək və sosial hüquqlarının qorunması, maddi və sosial tələbatlarının ödənilməsi yeni islahatların əsas hədəflərindəndir. Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində makroiqtisadi sabitlik şəraitində sosialyönümlü iqtisadiyyatın formalaşması tam təmin edilmiş, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektoru və regionların inkişafı sürətlənmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmişdir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

# Respublika Veteranlar Təşkilatında görüş



**Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyevlə görüş keçirilib.**

Görüş əsnasında Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynov təşkilatın son dövrlərdə həyata keçirdiyi tədbirlər haqqında məlumat verib. T.Ağahüseynov Azərbaycan Xalq Cümhuriyyətin yaranmasının, eləcə də ordumuzun və digər dövlət orqanlarının yubileylərinin keçirilməsi, 9 May - Qələbə Gününün qeyd edilməsi, bir sözlə, tariximizin işıqlandırılmasında veteranların fəaliyyəti haqqında danışıb. O, təşkilatın beynəlxalq əməkdaşlığı daha da genişləndirdiyini, bu sahədə fəaliyyətini artırdığını diqqətə çatdırıb.



Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov Azərbaycan Respublikası Prezidentinin ölkə veteranlarını həmişə diqqət mərkəzində saxlamasından, onların problemlərinin birinci növbədə həll olunmasından danışıb, müharibə iştirakçılarının, əlillərin sosial müdafiəsini gücləndirmək istiqamətində ardıcıl Sərəncam və fərmanlar imzalandığını qeyd edib. Bildirib ki, Azərbaycan veteranları bu baxımdan bütün MDB məkanında ən çox qayğı və diqqətlə əhatə olunmuşlar və Ulu Öndərin dediyi kimi, veteranlara sözün həqiqi mənasında Azərbaycanın xəzinəsi kimi yanaşılır.

C.Xəlilov veteranların maddi rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsinin onları daim ruhlandırdığını, özlərini daim sırada hiss etdiklərini vurğulamışdır. Azərbaycan veteranlarının dövlət başçımızın həyata keçirdiyi daxili və xarici siyasəti birmənalı dəstəklədiklərini və bu siyasətin gələcəkdə də uğur qazanması üçün bütün bilik və bacarıqlarını sərf edəcəklərini bildirmişdir.

Azərbaycanda müharibə əlillərinə və veteranlarına yüksək dövlət qayğısı göstərildiyindən danışan Ərəstun Mehdiyev respublikada bu siyasətin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu, Ulu Öndərin Azərbaycana yenidən rəhbərliyə qayıtması ilə veteranlar təşkilatının fəaliyyətinin canlandığının şəxsən şahidi olduğunu bildirib. O, xüsusilə 1994-cü ildən etibarən bu istiqamətdə ardıcıl və məqsədyönlü addımların atıldığını, ümummilli lider Heydər Əliyevin imzaladığı ilk qanunlardan birinin məhz veteranların hüquqlarının bərpası ilə bağlı "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanunu (1994-cü il 28 iyun) olduğunu qeyd edib. Bununla da yüksək səviyyəyə qaldırılan veteranlara dövlət qayğısının hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirən Ə.Mehdiyev bugünkü təqdimatların da bu sahədə növbəti addımın sübutu olduğunu vurğulayıbdır.

Daha sonra təşkilatın fəaliyyətini yüksək qiymətləndirən Ərəstun Mehdiyev general-polkovnik Tofiq Ağahüseynova və sədr müvini Cəlil Xəlilova "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalını təqdim edib.

## 172 MƏNZİL, 52 FƏRDİ YAŞAYIŞ EVİ İSTİSMARA HAZIRDIR



Mənzil-Tikinti Kooperativləri üzrə (MTK) 172 mənzil və 52 fərdi yaşayış evi müvafiq sənədləşdirmə aparılmaqla istismara qəbul olunub. 266 yeni abonentə kod, 81 abonentə kart açılıb, 84 abonentlə təbii qazın alqı-satqı müqaviləsi bağlanılıb.

"Azəriqaz" İB-nin Bakı Regional Qaz Ölçü Qurğuları-na Xidmət Departamentindən bildirilib ki, 28 qeyri-əhali sektoru üzrə yeni obyektlərə rəy, 7 yeni obyektə isə qaz verilib.

## ÖTƏN GÜN NƏ QƏDƏR QAZ SAYĞACINA BAXIŞ KEÇİRİLİB?




Şəmkir Regional Qaz İstismarı İdarəsi üzrə 202 sayğaca baxış keçirilib, 138 sayğac yenisi ilə əvəzlənib. Tərtər Regional Qaz İstismarı İdarəsi üzrə ötən gün ərzində 181 ədəd sayğaca baxış keçirilib və onlardan 48 ədədi yenisi ilə əvəz olunub. Salyan Regional Qaz İstismarı İdarəsi üzrə 58 sayğac yenisi ilə əvəzlənib. Bunlardan 20 ədədi istismar müddəti bitdiyi üçün yenilənib. Sumqayıt Qaz İstismarı İdarəsi üzrə isə 104 sayğac yenisi ilə əvəzlənib.

## SAYĞACLARIN EKSPERTİZASINA CİDDİ YANAŞILIR



"Azəriqaz" İB-nin Metrologiya Departamentinin sayğacların ekspertizası şöbəsində 693 ədəd sayğaca baxış keçirilib, 260 ədədinin birbaşa aşkar edilmiş vizual qüsura əsasən rəyləri verilib. 399 ədəd sayğac sınaq qurğusunda yoxlanılıb, həmçinin 645 ədəd smart-kart tipli, 152 ədəd mexaniki tipli qaz sayğacları yoxlamaya qəbul olunub. 146 ədəd smart-kart tipli qaz sayğacı Regional Qaz İstismarı idarələrinə təhvil verilib.

# İlahiyyat İnstitutu media nümayəndələrini mükafatlandırdı

**Azərbaycan İlahiyyat İnstitutu (AİI) 22 iyul - Milli Mətbuat Günü münasibətilə tədbir təşkil edib.**

AZƏRTAC xəbər verir ki, tədbiri açan AİI-nin rektoru Ceyhun Məmmədov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasət nəticəsində mətbuatımızın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu qeyd edib. Rektor bildirib ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə və 1993-cü ildən sonrakı dövrdə bütün sahələrdə olduğu kimi, mətbuatda çalışanlara da xüsusi diqqət və qayğı göstərib. Ölkəmiz müstəqillik əldə etdikdən sonra hər il iyulun 22-si Milli Mətbuat Günü kimi qeyd olunur.




Ceyhun Məmmədov vurğulayıb ki, Həsən bəy Zərdabinin təsis etdiyi "Əkinçi" qəzetinin nəşri bütün Qafqazda əks-səda doğuraraq, xalqımızın milli oyanışında, birliyinin möhkəmləndirilməsində böyük rol oynayıb. Rektor mətbuatın dövlət-din münasibətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmasını yüksək qiymətləndirib, media nümayəndələrini bu sahədə həyata keçirilən islahatları ictimaiyyətə çatdırmaqda daha da fəal olmağa çağırıb. Dünyada, xüsusilə din sahəsində baş verən dəyişikliklərin ictimaiyyətə çatdırılmasında fəal jurnalist mövqeyi ilə seçilən mətbuat nümayəndələrini 22 iyul - Milli Mətbuat Günü münasibətilə təbrik edib.



Media nümayəndələrini təbrik edən Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımızın xalqımızın maariflənməsində, milli dəyərlərin təbliğində mühüm vasitə olduğunu bildirib, Azərbaycanda medianın inkişafı istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini nəzərə çatdırıb. Qeyd edib ki, Azərbaycan tolerant ölkədir və respublikamızda mövcud olan bu mühitin təbliğində medianın rolu böyükdür.

Beynəlxalq Mətbuat Mərkəzində təşkil olunan tədbirdə AİI-nin fəaliyyətini obyektiv işıqlandıran, fəallığı ilə seçilən media nümayəndələri təltif olunublar.

# Azərbaycan "yüksək insan inkişafı" ölkələri sırasında

**Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılan islahatların, görülən işlərin, həyata keçirilən tədbirlərin sayəsində cari ilin birinci rübündə bütün sahələrdə hərtərəfli və dinamik inkişaf təmin edilib. Respublikamızın iqtisadiyyatının qısa, orta və uzunmüddətli inkişaf konsepsiyaları, qəbul olunan Dövlət proqramları, Strateji Yol xəritələri Azərbaycanda davamlı inkişafın əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin, inklüzivliyin və sosial rifahın daha da artırılmasına böyük töhfələr verib. Ölkəmizin davamlı inkişafının təmin olunmasında dövlət başçısının böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət, o cümlədən bu siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsi həlledici rol oynayıb.**

Bunu 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları da təsdiq edir. Belə ki, hesabat dövründə dövlət büdcəsinə vergi və gömrük orqanlarının xətti ilə 200 milyon manatdan artıq əlavə vəsait toplanıb, ümumi daxili məhsul 3 faiz, sənaye istehsalı 4,4 faiz, qeyri-neft sektorunda sənaye istehsalı 15,6 faiz artıb. Həmçinin kənd təsərrüfatı 3,6 faiz, əhalinin gəlirləri 5,5 faiz artıb, inflyasiya aşağı həddə - 2,1 faiz olub, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərmayə qoyulub .

Ölkə başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas parametrlərindən biri də sahibkarlığın daha da inkişaf etdirilməsidir. Genişmiqyaslı islahatların davam etdirilməsi, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində köklü dəyişikliklər, regional inkişaf proqramları çərçivəsində həyata keçirilən siyasətin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, investisiyaların təşviqi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, infrastruktur təminatının sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər, bank sektorunun sağlamlaşdırılması, vergi və gömrük sahəsində sistemli islahatların aparılması sahibkarlığın inkişafına böyük töhfələr verib. Bundan başqa, ölkə başçısının Fərman və sərəncamlarının, Dövlət proqramlarının uğurlu icrası, dövlət müəssisələrinin özəlləşdirilməsinin və idarəetməyə verilməsinin sürətləndirilməsi, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması və haqsız rəqabətin qarşısının alınması, aqrar sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi də sahibkarlığın inkişafına ciddi təkan verib.

Sahibkarlığa dəstək məqsədilə atılan addımların davamı olaraq biznes fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana şikayətlərin verilməsi mexanizminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında, eləcə də mərkəzi və yerli icra hakimiyyəti orqanlarında apelyasiya şuralarının yaradılması bu sahəyə göstərilən diqqətin əyani sübutudur.

Respublikamızda sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən siyasət nəticəsində görülən işlər nüfuzlu beynəlxalq



təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Bu qurumların hesabatlarında iqtisadiyyatın sürətli inkişafı ilə bağlı mühüm uğurlar, o cümlədən ölkəmizdə investisiyalar üçün əlverişli biznes mühitinin yaradılması, sahibkarlıq subyektlərinin qeydiyyat prosesinin təkmilləşdirilməsi məsələləri əksini tapıb. Məsələn, "Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan Respublikası 2016-cı ildəki 63-cü yerdən 2019-cu ildə 25-ci yerə yüksəlib. Davos İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan iqtisadiyyatı 2018-ci ildə rəqabət qabiliyyətinə görə 138 ölkə arasında 35-ci yerdədir və ardıcıl olaraq 8 ildir ki, MDB ölkələri arasında birincidir. Forumun "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında Azərbaycan ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında üçüncü, MDB məkanında isə birinci yerdə qərarlaşıb. BMT İnkişaf Proqramının insan inkişafı indeksinə görə Azərbaycan "orta insan inkişafı" qrupu ölkələrini tərk edərək, "yüksək insan inkişafı" ölkələri kateqoriyasına daxil olub.

**Zahid Rza,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**strukturuna daxil olan qurumların Əks osmos və bioloji təmizləmə qurğularına tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11123AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifi

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 09.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla.15.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər Lot 1 üzrə-118 AZN (ƏDV ilə), Lot 2 üzrə 118 AZN (ƏDV ilə)və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: IBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: IBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: IBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: IBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:*** Tələb olunmur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73;
SOCAR, "Azneft" İB
Əlaqələndirici şəxs:
Səməd Əsədov
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 5211153
korporativ mobil nömrəsi: +99450 8411153
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı:samad.asadov @socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**"Sodasorb" markalı "Kimyəvi əhəngli uducu maddəyə"olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (11155AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət
* İştirak haqqının ödənilməsi barədə bank sənədi
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 16.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 22.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.
* 1-ci lot üzrə 59 Azn (ƏDV-ilə)
* 2-ci lot üzrə 59 Azn (ƏDV-ilə)
* Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: IBAZAZ2X

Intermediary Bank:Deutsche Bank Trust
Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: IBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG,
Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: IBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: IBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary:State Oil Company of Azerbaijan Republic
TAX ID: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

**** IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqəyə təklif verilən zaman olunacaq bank təminatı:***
Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - tələb olunmur.
.Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 30% avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
Əlaqələndirici şəxs:
Müsayev Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 337 (daxili)
korporativ mobil nömrəsi: +99450 417 71 01
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı:kamilH.musayev @socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 22.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**müxtəlif mal-materiallara olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25133-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 06.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 15.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 590.00 AZN (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.
* Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
AZ38IBAZ38010019449306332120 AZN

İntermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33 / ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X / TAX İD: 9900003871
Beneficiary: State Oil Company of Azerbaijan Republic
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD
Beneficiary Bank: The International Bank of
Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120 GBP

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
Bank təminatı:
İddiaçının təqdim etməli olduğu müsabiqə təklifinin təminatı müsabiqə təklifinin ümumi qiymətinin 2 (iki) % məbləğindən aşağı olmamalıdır.
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5% məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
Əlaqələndirici şəxs:
Zeynalov Samir
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin rəis müavini
Telefon nömrəsi: +994 12 521-00-00 25-067
Korporativ mobil: +994 50 842 50 67
Elektron ünvan: samir.zeynalov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Karbamid zavodu

**xüsusi geyim və fərdi mühafizə vasitələrinin satın alınması məqsədi ilə açıq satınalma müsabiqəsinin 2-ci Lotunun (müsabiqə №: 32004-19) müddətini uzadaraq yenidən elan edir..**

***I. Müsabiqənin 2-ci Lotunda iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqənin 2-ci Lotunda iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 29.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. 2-ci Lot üzrə Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* 2-ci Lot üzrə Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 05.08.2019-cu il, Bakı vaxtı ilə saat 14:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır.
* İddiaçının nümayəndələri müvafiq etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə birlikdə qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin emtək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər istəyənlər 236,00 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

Intermediary Bank: Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No:AZ08IBAZ38110019789306332120 EUR
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120
* İştirak haqqı heç bir halda geri qaytarılmır.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin yerinə yetirilməsi üçün 60 təqvim günü icra müddəti tələb olunur. (İran istehsalı qəbul olunmur)

***V. Bank təminatları:***
1.İddiaçıdan yalnız müsabiqə (LOT2 üzrə) təklifinin ümumi qiymətinin 5%-i miqdarında təminat tələb olunur.
2.Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.
3.Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.
4.Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.
Avans ödənişinə görə təminat:
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 20%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.
Müqavilənin yerinə yetirilməsi təminatı: (LOT2 üzrə)
Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin ümumi qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ5000, Karbamid zavodu, Sumqayıt şəhəri, Səməd Vurğun 86
Əlaqələndirici şəxs:
Bahadur Abdıyev
Komplektləşdirmə və Təchizat şöbəsinin böyük mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 32-090
Korporativ mobil: +994503006949; +994 50 843 20 90.
Elektron ünvan: bahadur.o.abdiyev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 05.08.2019-cu il tarixdə Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Karbamid zavodunun Satınalmalar qrupu**

# "Yay məktəbi" gənclərin gözü ilə

## İştirakçılar xoş təəssüratlarını "İki sahil"lə bölüşdülər



**Yeni Azərbaycan Partiyasının ( YAP) 2007-ci ildən həyata keçirdiyi "Yay məktəbləri" layihəsi ənənəvi olaraq bu mövsümdə də baş tutdu. YAP-ın təşkilatçılığı ilə gənclər Lerik və Oğuz turlarının iştirakçısı olmaqla biliklərini daha da zənginləşdirmək, hər bir bölgə haqqında daha dolğun məlumatlar əldə etmək, ən əsası bir araya gələrək öz fikirlərini bölüşmək və yaxından tanış olmaq imkanı əldə etdilər.**



Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, bu gün nəinki Azərbaycanın, eyni zamanda, bölgənin aparıcı təşkilatına çevrilən Yeni Azərbaycan Partiyası daim gənclərə diqqət və qayğını, onların potensial imkanlarını ortaya qoymaları üçün zəruri şəraitin yaradılmasını, gənc liderlər, siyasətçilər kimi yetişdirilmələrini fəaliyyətinin əsas istiqaməti kimi qəbul edib. Ənənəvi keçirilən "Yay məktəbi" layihəsi də bu məqsədlərə xidmət edən addımlar sırasındadır. Layihə çərçivəsində nəzərdə tutulan tədbirlərdən iştirakçıların əldə etdikləri xoş təəssüratlar onların gələcək inkişafı və uğurları üçün həm faydalı olur, həm də yaddaşlarında yay xatirələri olaraq qalır. Aktual mövzular ətrafında təşkil olunan təlim və tədbirlərdə, diskussiya şəklində davam edən seminarlarda gənclər onları maraqlandıran suallara cavablar əldə edirlər.

"Yay məktəbləri"nin iştirakçıları xoş təəssüratlarını "İki sahil"lə bölüşdülər:

**Kubra Əliyarlı - YAP Binəqədi rayon təşkilatının baş məsləhətçisi:**

-Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti ölkəmizdə uğurla davam edir. Bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə gənclərin inkişafına, onların ictimai-siyasi fəallığına xidmət edən çoxsaylı layihələr və tədbirlər həyata keçirilir, Dövlət proqramları icra olunur. Azərbaycanın hər uğurunda payı olan Yeni Azərbaycan Partiyası da bu istiqamətdə uğurlu layihələr həyata keçirir. Bu layihələr sırasında "Yay məktəbləri"ni xüsusi qeyd etmək istərdim. Artıq neçə illər-



dir iştirakçısı olduğum bu layihə haqqında fikirlərim çox yüksək, xatirələrim isə unudulmaz və zəngindir. Belə ki, bu layihə çərçivəsində Yeni Azərbaycan Partiyasının şəhər və rayon təşkilatlarından olan gənclərin iştirakı ilə öncədən təsdiqlənmiş proqrama uyğun olaraq tədbirlər, seminarlar, təlimlər, intellektual yarışlar təşkil olunur. Burada iştirakçı gənclər həm maariflənir, həm də onları maraqlandıran müxtəlif mövzular ətrafında müzakirələrdə iştirak edir, asudə vaxtlarını səmərəli keçirirlər.

Layihə, eyni zamanda, ona görə maraqlı olur ki, gənclər arasında sıx əlaqə və ünsiyyət yaranır. Milli Məclisin deputatlarının, ölkə ziyalılarının və siyasətçilərinin iştirakı ilə keçirilən diskussiyalarda praktik biliklər əldə edə bilirik.

**Rəna Süleymanlı - YAP Nəsimi rayon təşkilatı Gənclər Birliyinin sədr müavini:**

- "Yay məktəbləri" layihəsini yüksək dəyərləndirirəm. Layihə çərçivəsində keçirilən diskussiyalar zamanı müxtəlif aktual mövzular ətrafında fikir mübadiləsi aparmaq nitqimizi inkişaf etdirir, debatlar üçün lazım olan təcrübə, həmçinin sərbəst fikir bildirmək imkanlarımızı artırır. Bir iştirakçı olaraq layihə müddətində topladığım təcrübə karyera imkanlarımın genişlənməsi üçün də stimulverici amildir.

**Yeganə Əsgərli - YAP Binəqədi rayon təşkilatının Gənclər Birliyi İdarə Heyətinin üzvü:**

- "Yay məktəbləri" mənim, həmçinin gənc həmfikirlərim üçün böyük bir məktəb, uğurlu bir təcrübədir. Keçirilən tədbirlər yeni biliklərin əldə edilməsinə zəmin yaratdı. Altı gün bütün fəal gənclərin həyatında öz marağı və faydalı informasiya bolluğu ilə iz qoydu. Bu izin bizim gələcək həyatımıza da öz müsbət təsirini göstərəcəyini düşünürəm. "Yay məktəbi"nin bütün iştirakçılarına müvəffəqiyyətlər arzulayıram.

Gənclərimizin fikirlərindən ümumi nəticə bu



oldu ki, 12 ildir ənənəvi keçirilən "Yay məktəbləri" gənclərimizin yaddaşında xoş təəssüratlarla qalıb. Ötən illərlə müqayisədə bu il layihənin iştirakçılarının sayı da artıb. Bu, ondan xəbər verir ki, layihənin icrasına start veriləndə qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olunur, ən əsası hər bir gənc özünün bilik bazasını daha da zənginləşdirir, yeniləşdirir.

✍ **Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

---

MƏTBƏXİMİZƏ SOXULAN OĞRULAR:

# növbəti erməni təxribatının izi ilə...



**Azərbaycan mütəmadi olaraq barışın və sülhün tərəfində olduğunu bəyan etsə də, işğalçı Ermənistanın qondarma iddialarla "qidalanan" zəhərlənmiş "beyin" sahibləri ən müxtəlif sferalarda xəlvət-aşkar öz təxribatlarını davam etdirməkdə israrlıdırlar.**

Azərbaycanın əzəli torpaqlarına məqsədli şəkildə yerləşdirilən ermənilərin nankorluqda sərhəd tanımadıqları hamıya məlumdur.

Bu gün ermənilər Azərbaycanın təkcə torpaqlarına, maddi-mədəni sərvətlərinə deyil, həm də xalqımızın uzun əsrlərdən bəri formalaşmış mənəvi irsinə əsassız iddialar irəli sürərək görünməmiş həyasızlıq nümayiş etdirməkdən çəkinmirlər.

Müvəqqəti atəşkəs rejiminin tələblərinə müvafiq olaraq hazırda döyüşlər getməsə də, işğalçı Ermənistan hər fürsətdə öz əsassız iddiaları, oğurluqları və plagiatları ilə xalqımıza qarşı amansız və ədalətsiz müharibə aparmaqdadır.

Ermənilərin Azərbaycanın mədəni, dini və tarixi abidələrinə, adət-ənənələrinə, mədəniyyətinə, incəsənətinə, tarixinə, musiqisinə, hətta mətbəxinə belə əl və dil uzatması qarşısıalınmaz şəkildə davam etdirilir.

Bu günlərdə "armeniasputnik" saytında daha bir erməni təxribatı "boyaboy" şəkildə qarşımıza çıxdı. Adıçəkilən erməni saytında silsilə təxribatlar haqqında xəbərlər yazılarmızda da müəyyən məqamları işıqlandırmışdıq.

Ancaq gizli-aşkar erməni təxribatları durmaq bilmədən elə tam sürət götürüb ki, deyəsən, dayanmağa macalları yoxdur... İlk baxışdan məsum görünən, amma əslində ciddi oğurluq faktları və "erməniləşdirmə" cəhdləri ilə "zəngin" "armeniasputnik" bu dəfə də Azərbaycan mətbəxinə soxulmağa cəhd edib.

Yeri gəlmişkən qeyd edək ki, "Sputnik" informasiya agentliyi təxminən 30 dildə və hazırda sutkada 800 saat olmaqla dünyanın 130 şəhərində və 34 ölkəsində saytları, yerli radioları ilə fəaliyyət göstərir. Bu internet resurslarında təmsil olunduqları ölkənin müxtəlif sferalarını əhatə edən xəbərlər hazırlanaraq təqdim edilir. Adıçəkilən "armeniasputnik" də həmin internet resursunun Ermənistan bürosu olaraq fəaliyyət göstərən saytdır.

"Armeniasputnik"in "Dadlı Ermənistan" adlı bölümündə təqdim olunan təamların işğalçı ölkə ilə yaxından-uzaqdan əlaqəsi yoxdur. "Dadlı Ermənistan"ın "duzu və istiotu" isə təbii ki, yalanla süslənmiş erməni məkri və təxribatlarıdır.

Keçəndəfəki yazımızda Azərbaycanın milli xörəkləri olan piti, plov, lavaş, dolma, dovğa, kabab, xaş və quymağın, eləcə də bir sıra milli içkilərimizin Ermənistan mətbəxi kimi dünyaya "sırındığını" qeyd etmişdik. Budəfəki təxribat məqamı isə yolu mətbəxdən keçən siyasi təxribat faktıdır.

"Dadlı Ermənistan" rubrikasının bu dəfəki təxribat "məhsulu" birbaşa Azərbaycan torpaqlarında yaradılmış qondarma rejimin adı ilə bağlıdır.

Belə ki, bu günlərdə adıçəkilən rubrikada "Artsax ahanisi" adlı təam oxuculara təqdim edilib. Bu yeməyin tərkib və hazırlanma qaydasına əsasən milli mətbəximizin "toyuq çığırtması" olduğunu xatırladaraq birbaşa xörəyin adına və hətta dünyada təqdimatına cəhd olunmasına diqqət çəkmək istərdik.

Yazıda yeməyin hazırlanma qaydası fotolarla verilib. Məqalədə, həmçinin qeyd olunub ki, sözügedən xörək erməni kulinarı Anna Matevosyanın təqdimatında cari ilin aprel ayında Misirdə keçirilən "Mədəniyyətin kulinar dadı" adlı beynəlxalq sərgidə "Ən yaxşı milli yemək" nominasiyasında qalib olub. Diqqət çəkmək istədiyimiz məqam da budur: Onsuz da Azərbaycan xörəyi olan təamın qondarma rejimin adı ilə beynəlxalq arenada təqdimatı! Bu fakt bir daha göstərir ki, ermənilər qondarma rejimin legitimləşdirilməsi istiqamətində əl atmadıqları yol qalmayıb. Hər zamankı kimi ermənilər öz işğalçılıq siyasətini davam etdirərək ən axırıncı yolu belə sınaqdan keçirməyə hazırdırlar...

Ermənilər illərdir ki, bu şəkildə minlərlə təxribat faktları ilə beynəlxalq ictimaiyyətin beynini yuyaraq öz qondarma, əsassız ərazi iddialarını durmadan, yorulmadan yaddaşlara "qazımaqla" məşğuldurlar.

Təəssüf ki, xalq və dövlət olaraq taleyimizə dəyişdirə bilməyəcəyimiz qismət yazılıb. Yəni uğursuz tarixi şəraitin və geosiyasi gerçəkliklərin diktəsi ilə əzəli Azərbaycan torpaqlarında qurulan Ermənistan qonşumuz olub. Məhz buna görə də bizim də eyni şəkildə durmadan, yorulmadan və bezmədən ermənilərin demək olar ki, bütün sferalarda əleyhimizə apardıqları təxribatları bəzən önləmək, bəzən də ifşa etmək mənəvi borcumuz və milli öhdəliyimizdir. Ermənilərin hər bir xırda təxribat faktının qarşısı təkcə müvafiq qurumlar tərəfindən deyil , eyni zamanda, fərdi vətəndaş təşəbbüsü ilə qarşılaşdığımız hər yerdə ifşa edilməlidir və bu işdə ayıqsayıqlıq son dərəcə vacibdir. Çünki bu gün başısoyuqluq göstərib yan keçdiyimiz hər "ətcəbala" fakt sabah "böyüyüb ətə-qana dolaraq" əsassız, qondarma erməni iddialarının növbəti banlaması kimi qarşımıza çıxacaq...

✍ **Sevinc Abdullayeva,**
***"İki sahil"***



# Aşot Paşinyanın "əsgərlik" sərgüzəştləri

**Sevinc Azadi**

Paşinyanın oğlunun Dağlıq Qarabağda hərbi xidmət keçməsi hələ də siyasi şou olaraq qəbul edilməkdədir. Məsələ bundadır ki, populist Paşinyan bu yolla reytinqini və cəmiyyətdə nüfuzunu qorumağa çalışır. O, ölkənin üzləşdiyi ciddi sosial, siyasi, iqtisadi problemlərin həlli istiqamətində işlər görmək əvəzinə, bu cür yolla öz reytinqini saxlamaq istəyir. Bu hadisə ətrafında böyük piar kampaniyası quran düşmən iqtidarı öz təsiri altında olan KİV-lər vasitəsilə oğlu Aşotu işğal altında olan Dağlıq Qarabağa hərbi xidmətə yollayan Nikol Paşinyanı az qala dahi lider kimi təqdim edir. Belə ki, oğlu olmayan Levon Ter-Petrosyan və Serj Sarkisyandan, hər 2 oğlu hərbi xidmətdən yayınan Robert Koçaryandan fərqli olaraq, Nikol Paşinyanın oğlunu hərbi xidmətə, özü də hərbi aktivliyin saxlanıldığı Dağlıq Qarabağa göndərməsi ictimaiyyətin gözündə əlavə xal toplamağa hesablanmış siyasi gediş idi. Amma Paşinyanın oğlunun hərbi xidmətə başladığı gündən bu hadisə ətrafında qalmaqallar az olmayıb. Onun tez-tez helikopterlə Yerevana gəlməsi, xidmət etdiyi hərbi hissədə zabitlərlə yola getməməsi, onlarla sərt tonda danışması, ətrafında əsgər paltarı geymiş bir qrup mühafizəçinin olması erməni nazirin oğlunun hərbi xidmətinə kölgə salan məqamlar idi.

Ermənistan mətbuatında Paşinyanın oğlu Aşot Paşinyanın Dağlıq Qarabağda hərbi xidmət keçməsi barədə hər keçən gün maraqlı məlumatlar yayılır. Son xəbərlərdən isə belə bəlli olur ki, baş nazirin oğlu heç də bəyan edildiyi kimi sadə ermənilərlə birlikdə Füzuli-Cəbrayıl istiqamətində döyüş postlarında xidmət etmir, vaxtını Xankəndidə keçirir. Aşotun hərbi hissədən kənarda yaşaması üçün Xankəndidə villa ayrıldığı da bəllidir. "Lragir" portalı yazır ki, Nikol Paşinyan oğlunun Qarabağda təhlükəsiz və komfortlu şəraitdə xidmət keçməsini təmin etdikdən sonra Aşot Paşinyan burada vaxtını boş keçirmir: "Artıq məlumdur ki, o, hərbi xidmətdən başqa hər şeylə məşğuldur. Hətta qudurmuşluğun dərəcəsinə baxın ki, evinin mühafizəsi üçün hərbi bölük ayrılıb. Burada onun özünə münasib bildiyi yoldaşları ilə bərabər gecə əyləncələrindən tutmuş qumar oyunlarına kimi hər şey təşkil olunur. Görünən budur ki, hərbi xidmət baş nazirin oğlu üçün pis keçmir. Necə ki, atası bütün qanunsuzluqlara gedərək baş nazir postunda vaxtını boş keçirmir, kreslosunda yerini daha da möhkəmləndirməyə çalışır".

Yayılan növbəti xəbərə görə isə Paşinyanın oğlu artıq Qarabağda deyil. "Bizim əsgərlər müxtəlif təlim və görüşlər üçün tez-tez hərbi hissələrinin yerini dəyişə bilərlər"-deyə Ermənistan Müdafiə Nazirliyi yaranmış qalmaqalı sakitləşdirmək üçün açıqlama yaysa da, müxalifət mediası Aşot Paşinyanın artıq 1 aya yaxındır ki, Yerevan yaxınlığındakı Sovetaşen hərbi hissəsində qulluq etdiyini bildirir. Ermənistandakı sosial şəbəkə istifadəçiləri hesab edir ki, Yerevana yaxın hərbi hissəyə köçürməklə Paşinyan oğlu üçün daha rahat şərait qurmaq qərarına gəlib.

Görünən odur ki, hərbi xidmətinin bitməsinə 1 ili qalan Aşot Paşinyanın "əsgərlik" sərgüzəştləri hələ çox davam edəcək.

# Türkiyənin aldığı S-400-lər Ermənistanı lərzəyə salıb

ABŞ və NATO-nun təhdidlərinə baxmayaraq, Türkiyənin Rusiyadan aldığı S-400-lərin ilk partiyası nəhayət, Ankaraya çatıb. Bu, qardaş ölkənin öz hava məkanına daha yaxşı nəzarət etməsi və bölgədə Ankaranın güclənməsi deməkdir. Bəzi Qərb dövlətləri S-400-lərin Türkiyəyə gəlişindən narahatdır. Rusiyanın NATO daxilinə "Troya atı" yerləşdirməsi mənasında onların bu narahatlığı başadüşüləndir. Hətta qarşıdakı günlərdə Türkiyəyə qarşı sanksiyalar tətbiq ediləcəyinə dair məlumatlar da yayılmaqdadır. Türkiyənin S-400 sistemləri almasından ən çox qorxu keçirən ölkələrdən biri də Ermənistandır və təbii ki, bu, heç də səbəbsiz deyil.

Burada Türkiyə və Rusiyanın S-400-lərlə bağlı anlaşmasında "məhdudiyyətin olmaması" ifadəsi xüsusi diqqət çəkir. Nəzərə alaq ki, NATO Türkiyənin Avropa İttifaqı ölkələri və ABŞ-dan aldığı silahlarla bağlı bəzi məhdudiyyətlər qoyur. Bu tələblərdən biri də bu silahların "Yunanıstan və Ermənistan sərhədlərinə yerləşdirilməməsidir". Rusiya isə Türkiyənin qarşısında belə bir məhdudiyyət qoymayıb və bu, Ankaranın S-400 batareyalarından birini Ermənistan sərhədinə yerləşdirməsinə heç bir maneənin olmaması deməkdir.

S-400-lərin bir batareyasının Yunanıstan sərhədinə yerləşdirilməsi Türkiyəyə bu istiqamətdən gələ biləcək təhdidlərin qarşısını almağa imkan verəcək. Bir batareyanın Ermənistan sərhədinin yaxınlığına yerləşdirilməsi isə həm İran, İraq, həm Suriyadan nə vaxtsa ola biləcək təhlükələrə qarşı etibarlı müdafiəyə şərait yaradacaq, həm də Şərqi Aralıq dənizinə nəzarəti mümkün edəcək.



Türkiyə Silahlı Qüvvələrinin Baş Kəşfiyyat İdarəsinin keçmiş rəhbəri, general İsmayıl Hakkı mümkün təhlükələri belə xarakterizə edib: "Təhdidlər Ermənistan tərəfdən də ola bilər. Bütün bunlara qarşı Türkiyənin hava müdafiəsi yoxdur. Bizim 7-8 kilometr mənzili stinqerlər və zenit raketlərimiz var, lakin bunlar quru qoşunlarının yaxın müdafiəsini təmin edir".

Onun açıqlaması S-400 sistemlərindən birinin niyə Ermənistanla sərhədə yerləşdirilməsi ehtiyacını aydınlaşdırır. Bu, Türkiyənin hava müdafiəsini təşkil etməklə yanaşı, bölgədə Azərbaycanın da hava üstünlüyünə əlavə güc qatacaq.

Azərbaycan və Türkiyə arasında mövcud Strateji Əməkdaşlıq Sazişi iki ölkədən birinə qarşı hərbi əməliyyatın başlandığı vaxt digərinin dəstəyini şərtləndirir. Doğrudur, Azərbaycan Ordusunun Ermənistanla baş verə biləcək müharibədə buna ehtiyacı olmayacaq. Hərbi arsenalımızda mövcud olan raket kompleksləri də istənilən təhlükənin qarşısını almaq gücündədir.

Ona görə də S-400-lərin Ermənistan sərhədinin yaxınlığında yerləşdirilməsi ehtimalı Ermənistanın qorxusunu daha da artırır. Bu, bölgənin hava məkanının Ankara və Bakının nəzarətində olması deməkdir. Hələ bir müddət əvvəl Ermənistanda "S-400 batareyalarından birinin Azərbaycana veriləcəyi" qorxusu da dilə gətirilirdi.

Erməni siyasi şərhçi Akop Badalyan iddia edir ki, Türkiyə Rusiyadan aldığı iki divizion S-400-ün birini Azərbaycana verə bilər: "Türkiyə bu raket kompleksini Azərbaycana məhz "İskəndər"lərdən müdafiə üçün verə bilər. Əslində bu, Moskvanın razılığı ilə baş tutacaq məsələdir. Ermənistana "İskəndər" verən Rusiya Azərbaycana da S-400 verərək, münasibətləri qoruyur və bunu Türkiyə vasitəsilə edir".

O zaman bu qorxular uzun müddət Ermənistanı təşviş içərisində saxladı. Sonradan, ABŞ və NATO-nun S-400 almaması üçün Türkiyəyə təzyiqlər etməsi İrəvanın ümidlərini dirçəltmişdi, lakin son nəticədə Ankara istədiyinə nail oldu və işğalçı ölkə yenidən qorxunun köləsinə çevrildi.

"Armenianreport" hiddətlə yazır ki, ABŞ Türkiyəyə qarşı sanksiyaları təcili tətbiq etməlidir: "Ankaranın İrəvana qarşı siyasəti məlumdur, Türkiyə Azərbaycana Ermənistanı blokadada saxlamaq üçün dəstək verir. Türkiyə-Azərbaycan hərbi-siyasi ittifaqı Ermənistanı hədələyir. Bu baxımdan, bizə dostlarımız dəstək verməlidir".

Erməni mətbuatı Rusiyanı Türkiyə və Azərbaycana hərbi dəstəyi davam etdirməsinə görə ittiham edir. Hakimiyyət isə şokdan ayılmadığı üçün hələ heç bir rəsmi münasibət bildirməyib. Ancaq Ermənistan rəhbərliyində təmsil olunan bir neçə yüksək çinli şəxsin son günlər dalbadal ABŞ-a səfər etməsi ermənilərin həqiqətən də depressiyaya düşdüklərini və çabaladıqlarını göstərir.

Ermənistanda yaşanan isterik hallar Türkiyəyə qarşı sanksiyaların tətbiqi üçün ABŞ-dakı erməni lobbisinin hərəkətə keçəcəyi ehtimalını yüksəldir. Hərçənd, nəticəni dəyişmək mümkün olmayacaq, çünki S-400-lər artıq Türkiyədədir və işğalçı ölkənin başı üzərində ölüm kabusu hər an görünə bilər. O ki qaldı ABŞ-dakı erməni lobbisinin hərəkətə keçməyinə, bu lobbi Prezident Donald Trampa xəyanətinə görə hələ də "Ağ ev"ə yaxın buraxılmır. Belə çıxır ki, Ermənistan rəhbərləri xalqı sakitləşdirmək üçün nəticəsi olmayan xarici səfərlərə çıxırlar.

**Vəli İlyasov,**
***"İki sahil"***

*Şirin Məlikova:*

# Bu status muzeyimiz qarşısında yeni üfüqlər açır

Azərbaycanın xalça sənətinin dünyada tanıdılması və qorunub saxlanılması sahəsində müstəsna xidmətləri olan Azərbaycan Xalça Muzeyinə "Milli" statusu verilib. Belə ki, 15 iyul 2019-cu ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti bununla bağlı müvafiq qərar qəbul edib. Mədəniyyət Nazirliyinə Maliyyə Nazirliyi ilə birlikdə bu qərardan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Qeyd edək ki, mövcud qanunvericiliyə görə, Azərbaycan xalqının tarixi və mədəni ənənələrini tədqiq və təşviq edirən, habelə mədəni inkişaf istiqamətində əməli tədbirlər həyata keçirən, milli mədəniyyətin qorunması, zənginləşdirilməsi və inkişafında xidmətlər göstərən, regional və ölkə səviyyəsində böyük nüfuz qazanan, milli mədəniyyətin və incəsənətin inkişafında rolu olan muzeylərə belə status verilir.

Azərbaycan Xalça Muzeyinin direktoru, Beynəlxalq Muzeylər Şurası (İCOM) Azərbaycan Milli Komitəsinin sədri, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova mövzu ilə bağlı "İki sahil" qəzetinə müsahibəsində qeyd etdi ki, "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunun hazırlanıb qəbul olunması, Azərbaycan xalçaçılıq sənətinin UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi, Azərbaycan Xalça Muzeyi üçün müasir üslublu binanın tikilməsi və digər çox əhəmiyyətli tədbirlər muzeyimizə dövlət qayğısının bariz təcəssümüdür: "Xalça Muzeyinə belə bir statusun verilməsi isə bütün bunların məntiqi nəticəsidir".

Ş. Məlikova bildirdi ki, bu status muzeyimiz qarşısında yeni üfüqlər açır: "Belə ki, milli status ölkə və dünya səviyyəsində muzeyimizin nüfuzunu qaldırır, mədəniyyətimizin və incəsənətimizin qorunması, zənginləşdirilməsi və inkişafında xüsusi rolunu göstərir. Bununla yanaşı, bu sənədin qəbul olunması muzeyimizin əməkdaşlarının sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan müsbət bir addımdır.

Azərbaycan Xalça Muzeyinin kollektivi bu xəbəri böyük ruh yüksəkliyi və sevinclə qarşıladı. "Milli" statusa layiq görülmüş Azərbaycan Xalça Muzeyi xalqımızın maddi sərvətlərinin qorunduğu mühüm elm və mədəniyyət müəssisəsi kimi şərəfli fəaliyyətini daha böyük məsuliyyət və əzmlə davam etdirəcək".

Şirin Məlikovanın sözlərinə görə, ilk xalça muzeyi xalçaçılıq elminin banisi, görkəmli rəssam və pedaqoq Lətif Kərimovun təşəbbüsü ilə Bakıda yaradılmışdır: "Unikal kolleksiyaya malik muzey həm təqdim olunan zəngin materiallarına görə, həm də elmi-texniki təchizatına görə dünyanın ən tanınmış muzeyləri səviyyəsindədir. Statistik məlumata görə, təkcə 2018-ci ildə 110 mindən çox ziyarətçi Azərbaycan Xalça Muzeyinin kolleksiyası ilə tanış olmuşdur. Bununla yanaşı, muzeyin fəaliyyəti beynəlxalq muzey təşkilatları tərəfindən də yüksək qiymətləndirilmişdir. 2018-ci ildə Azərbaycan Xalça Muzeyi Beynəlxalq Muzeylər Şurasının (ICOM) Beynəlxalq Sənədləşmə Komitəsi (CIDOC) tərəfindən qeyri-maddi mədəni irs məlumat bazası üzrə "Ən yaxşı təcrübə" mükafatına layiq görülüb. Muzey, həmçinin Avropa Muzey Forumu tərəfindən "Avropanın ən yaxşı muzeyi 2018" müsabiqəsində "Muzey sahəsində ictimaiyyətlə işin qurulmasında innovasiyaların tətbiqinə görə" sertifikatı ilə təltif olunub. Üç il ardıcıl olaraq muzey dünyanın ən yaxşı muzeyi kimi ən məşhur və



nüfuzlu turizm saytı olan "TripAdvisor"un "Mükəmməllik sertifikatı"na layiq görülüb. Bu mükafata il ərzində "TripAdvisor"da səyyahlar tərəfindən daha çox müsbət rəylərə müvəffəq olmuş incəsənət və mədəniyyət ocaqları, o cümlədən turizm obyektləri layiq görülür. Mükafat saytda milyonlarla insanın müsbət rəyləri əsasında seçilmiş obyektlərə verilir və bununla da, ictimai rəyi ifadə etmiş olur".

Müsahibimiz, həmçinin vurğuladı ki, xalçalar həm xalqımızın məişətinin ayrılmaz hissəsi, həm də milli mədəniyyətimizin nümunəsidir. Ölkə Prezidenti İlham Əliyevin sözləri ilə desək, Azərbaycan xalça sənətinin vətənidir, xalça muğam, memarlıq abidələri kimi bizim milli dəyərimizdir, sərvətimizdir. Odur ki, ölkəmizdə xalçaçılıq ənənələrimizin qorunması, təbliğ olunması həmişə diqqət mərkəzində olub. Onu da deyim ki, bu gün ölkəmizin bölgələrində müasir xalça fabriklərinin inşası geniş vüsət alıb. Xalça fabriklərində toxunan məhsullar artıq "Made in Azerbaijan" brendi ilə dünyaya ixrac olunur.

Yeri gəlmişkən qeyd edək ki, hazırda dünyanın bir çox xarici muzeylərində Azərbaycan xalçaçılıq məktəblərinin dəyərli nümunələri qorunur. Bunlardan ən məşhuru Böyük Britaniyanın Viktoriya və Albert muzeyindəki Səfəvi hökmdarı Şah Təhmasibin tapşırığı ilə toxunmuş "Şeyx Səfi" xalçasıdır.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## "Neftqaztikinti" Tresti

**dalğavari metal dam örtüyü (aksessuarlarla birlikdə), profnastil və profnastil üçün tələb olunan şrupa olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25137-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
Müsabiqədə iştirak haqqında müraciət;
İştirak haqqının ödənilməsi barədə bank sənədi;
Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 13.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 20.08.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər LOT I üzrə 118 manat (ƏDV-ilə) və LOT II üzrə 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 15 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.
Bank təminatı:
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.
Hazırki satınalma əməliyyatında ödəniş şərti Alıcının sifarişi əsasında faktiki tədarük edilmiş mallar üçün 30 təqvim günü ərzində və ya satınalma müqaviləsində nəzərdə tutulmuş avans məbləği müsabiqə təklifin dəyərinin 30%-dən yuxarı təşkil etməməlidir.

***V. Satınalan təşkilatın ünvanı:***
AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.
Əlaqələndirici şəxs:
Astanov Siyavuş
Maddi Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00 25-125
Korporativ mobil: +994 50 454 66 33
Elektron ünvan: siyavush.astanov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 20.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



## "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı

**"Ümid" yatağı 1 saylı Stasionar Dəniz Özülündə Quyuların və texnoloji sistem üçün lazım olan ehtiyat hissələrinin və avadanlıqların (siyirtmələrin) satınalınması olan tələbatını təmin etmək məqsədi ilə Açıq Müsabiqə (TS-001/2019) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında imzalanmış və möhürlənmiş müraciət ən geci 12 avqust 2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi 1 (bir) əsli və 2 (iki) olmaqla 15 avqust 2019-cu il, Bakı vaxtı ilə saat 14:00-da Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 413.00 (350.00+18%) (dörd yüz on üç) manat (ƏDV daxil) məbləğdə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.
Hesab nömrəsi:
Voen: 1503807961
Bank: ASC "Xalq" Bankının Baş filialı, VÖEN: 2000296061,
M/h AZ24NABZ01350100000000067944, Kod: 501026, SWIFT: HAJCAZ 22
H/h AZ65HAJCHCNAZN10000098111001 - AZN
H/h: AZ25HAJCHCNUSD10000098111002 - USD
H/h: AZ29HAJCHCNEUR10000098111003 - AVRO
* İştirak haqqı heç bir halda geri qaytarılmır.

***IV. Təklifin təminatı:***
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin icrasına işlərə başlandıqdan sonra 6 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1029, Bakı, H.Əliyev prosp., 121, SOCAR Tower, 8-ci mərtəbə
Əlaqələndirici şəxs: Ümid Cəfərov
Əlaqələndirici şəxsin vəzifəsi: "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalma üzrə mütəxəssisi
Tel: (+994 12) 521 00 00 (27369)
Mob:(+994 50) 558 00 07
E-mail: tenders@socar-umid.com

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.ikisahil.az, www.azerweb.com, www.socar.az

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15 avqust 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 14:00-da, elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı e-maildən əldə edilə biləcək:
tenders@socar-umid.com "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin

**Azərbaycan Respublikasındakı filialının Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!
iki sahil
Son səhifə
16
www.ikisahil.az / www.ikisahil.tv
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 128 (7383) / Cümə axşamı, 18 iyul 2019-cu il

## Bu günlərdə əsəbiləşmək, ağlamaq və mübahisə etmək olmaz

# Ay tutulmasının səhhətimizə təsiri

**2019-cu ilin növbəti astronomik hadisəsi 17 iyul gecə baş verəcək. Təsiri həm təbiətə, həm münasibətlərə, həm də səhhətimizə 9 il davam edəcək Ay tutulması zamanı bir çox qaydalara əməl etmək lazımdır.**

Milli.Az medicina.az-a istinadən bildirir ki, bu ay tutulmasını Oğlaq bürcü idarə edəcək. O isə nəzarət, diqqət, məqsədyönlülüyü və səliqə-sahmanı sevir.

Ay tutulması və ondan əvvəlki gündən başlayan "qaranlıq dəhliz deyilən" həftə yüksək emosionallıq, ən qaba hisslərin üzə çıxması, gərgin psixoloji duruma səbəb olur.

İnsan psixikası bu yükün təsirindən qəfil alovlana, özünü idarə edə bilməyə, hətta köhnə umu-küsünü yada salıb, insanı özündən çıxara bilər.



Ay tutulmasının təsiri kütlədə insanlar arasından heç nədən konfliktlər yarada bilər. Bu ərəfədə nə yeni tanışlıqlar, nə də ayrılıqlar təqdir olunmur.

İntuisiyanıza 100% qulaq asıb, hətta dostlarınıza belə bu günlər etibar etməkdən çəkinməlisiz.

Ən kiçik səbəbə belə fikir bildirib, mübahisə etməyi özünüzə qadağa qoyun. 21 iyula kimi bir qədər tərki-dünya olub, sakitliyə çəkilin. Heç bir yeni başlanğıc, yeni iş, layihə planlamayın, vacib görüşləri təyin etməyin. Tamam neytral bir mövqeyə çəkilin.

Adətən Ay tutulması ərəfəsində və ondan sonrakı həftə qəza və faciəvi hadisələr artır. Ona görə adam çox olan yerlərdən, qatar, təyyarə, gəmi, ticarət mərkəzlərindən uzaq durun.

### SƏHHƏTİMİZƏ TƏSİRİ

Ən yaxşısı bu ərəfədə zərərli vərdişlərdən, narkotik, içki, siqaretdən tövbə edib tərgitməyə başlayasız, həyatınızı zindana çevirən insanları seçib onlarla əlaqəni kəsmək barədə düşünəsiz, eləcə də sizin psixikanıza yük olan keçmiş umu-küsü, pis hadisələrin təsiri, narazılıq və peşmanlıq hisslərindən azad olasınız. Düşmənlərinizi bağışlayın və inciklikləri unudun.

Bu günlər ürək-damar, sinir sistemi həssasdır. Xüsusən qadınlarda ürək sancıları arta bilər.

Bu günlərdə bədəninizdə hansı hissə ağrısa, bu sizə siqnaldır, deməli, orda həqiqətən problem var və onu müalicə etməlisiniz.

Maye qəbulunu azaldın, çünki Ay mayeni qabardır, bu da bədəndə artıq maye toplanmasına səbəb olur. Ət məhsulları, yağlı qidalar yeməyin. Axşam evinizdə sakit vəziyyətdə oturub, tez yatmağa çalışın. Nevroz və depressiyada olanlar maksimum sakitləşdirici dərmanlarını qəbul etsinlər.

## Rusiyada Avropanın ən böyük almazı aşkar olunub



**Rusiyanın Arxangelsk vilayətinin Mezensk rayonundakı mədəndə çəkisi 222,09 karat olan almaz aşkar olunub. Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, bu qiymətli daş Avropanın ən böyük almazıdır.**

Qeyd olunub ki, bu vaxtadək V.Qrib adına mədəndə aşkar olunan ən böyük almaz 181,68 karat olub. Onu "Arxangel Mixail" adlandırıblar. Yeni almaza da ad veriləcəyi bildirilir. Bundan başqa, iyulun 13-də həmin mədəndə nadir limon rəngində və yüksək zərgərlik dəyəri olan 47,61 karatlıq almaz da çıxarılıb. İyulun 8-də isə qiymətli və çəkisi 81,02 karat olan daha bir iri almaz tapılıb.

Çıxarılan almazların hamısı satışa çıxarılacaq. Onlar dünya bazarında satılacaq, əsas alıcılar isə İsrail və Belçika kimi dövlətlərdir. Almaz bazarı Niderlandın Antverpen şəhərində yerləşir.

V.Qrib adına mədən dünyanın ən iri almaz yataqlarından biridir. O, qiymətli daş ehtiyatlarına görə Rusiyada dördüncü, dünyada isə yeddinci yeri tutur.

## "Dirilişin" Ərtoğrulu tamamilə fərqli obrazda



İllərdir ki, reytinqlərdə ilk sıralarda qərarlaşan "Diriliş Ərtoğrul" serialının baş qəhrəmanı Engin Altan Düzyatan yeni layihə ilə qarşımıza çıxacaq.

Milli.Az Publika.az-a istinadən xəbər verir ki, adıçəkilən ekran işindən unudulmaz finalla vidalaşan məşhur aktyor yeni mövsümdən etibarən yeni serialda rol alacaq. O, "Kurşun" adlı tarixi serial ilə tamaşaçıların görüşünə gələcək. Serial "Fox" televiziyasında yayımlanacaq. E.A.Düzyatan bu serialda Orxan Kurşun adında bir prokuroru oynayacaq.

## Bu qan qruplu insanlar xərçəngdən sığortalanıb



İsveç alimləri xərçənglə ən az üzləşən qan qrupunu təyin ediblər. Müşahidələr göstərib ki, 1-ci qan qrupu olanlar arasında xərçəng xəstəliklərinə digər qruplarla müqayisədə qat-qat az təsadüf edilir.

Karolina İnstitutu (İsveç) alimləri 35 il (!) ərzində 1 milyondan çox insana nəzarət etdikdən sonra bu nəticəyə gəliblər.

Digər qruplara gəldikdə isə 2-ci qan qrupu olanlarda mədə xərçəngi, 3 və 4-cü qan qruplarında isə mədəaltı vəzi xərçənginə daha çox təsadüf edilir.

### ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin Tikinti üzrə rəis müavini

**Xalid Kərimovun**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Ə.D.Məlikov adına 6 saylı Birləşmiş Şəhər Xəstəxanasının rəhbərliyi və kollektivi xəstəxananın baş həkiminin müalicə işləri üzrə müavini İsrail Qasımova, həyat yoldaşı

**Lalə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin Tikinti üzrə rəis müavini

**Xalid Kərimovun**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Heydər Əliyev adına Neft Email Zavodunun baş mühəndisi Rasim İbrahimova, əzizi

**Mustafa müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

SOCAR-ın "Neftqaztikinti" Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunun baş mühəndisi Rasim İbrahimova, əzizi

**Mustafa müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## "Real" Poqbadan imtina edir



"Mançester Yunayted"in yarımmüdafiəçisi Pol Poqbanın "Real"a keçidi bu yay alınmaya bilər.

Milli.Az qol.az-a istinadən xəbər verir ki, buna səbəb mankunyanların fransalı yarımmüdafiəçi üçün tələb etdiyi təzminat məbləğidir. "Qırmızı şeytanlar" 26 yaşlı oyunçuya 200 milyon avro qiymət qoyub ki, bu da "kral klubu" üçün kifayət qədər yüksək məbləğ hesab olunur.

İspaniya mətbuatı iddia edir ki, "Mançester Yunayted" rəhbərliyi bununla Poqbanı komandada saxlamaq istədiklərini bildirib. Hətta komandanın baş məşqçisi Ole-Qunnar Sulşerin yeni mövsümdən kapitanlıq sarğısını Poqbaya həvalə edəcəyi gözlənilir.

Qeyd edək ki, Poqba ilə "Real"dan başqa, "Yuventus" da yaxından maraqlanır.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl HACIYEV
Baş redaktorun müavini: Nail Arifoğlu
Baş redaktorun müavini: Rəşad Bağırov

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 18.07.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8145
İndeks: 0151, Sifariş: 2276

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.